16 oktyabr 2020-ci il
№34 (8898)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## İlham ƏLİYEV, Ali Baş Komandan

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



# BİZ zəfər çalacağıq!

## Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini, Füzuli rayonunun 4, Cəbrayıl rayonunun 1, Xocavənd rayonunun 9 kəndini işğaldan azad edib

- Əziz həmvətənlər.

Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

***

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib.

***

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşlu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çıraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

İlham ƏLİYEV,
Ali Baş Komandan



# Döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik

- Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında.

- Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız.

- Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik.

- Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz!

- Amma işğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa, Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. "Qarabağ Ermənistandır" deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir "Qarabağ Ermənistandır". Səsini belə çıxara bilmir.

- Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində.

- Mən onlara bir daha deyirəm, əgər Moskva danışıqlarından sonra yenə də saxtakarlıq edəcəklərsə, özləri peşman olacaqlar. Biz torpaqlarımızı geri alacağıq - sülh yolu ilə, ya da ki, müharibə yolu ilə.

- Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq.

- Biz istəyirik torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu.

- Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

**Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz**

# Bütün Azərbaycan qələbə sevinci ilə yaşayır

## Təhsil işçiləri, elm xadimləri, məktəblilər Ali Baş Komandanın ətrafında sıx birləşdiklərini bəyan edirlər



**Hörmətli cənab Prezident.**

Sizin rəhbərliyinizlə rəşadətli ordumuzun 27 il öncə işğal olunmuş torpaqlarımızın mərhələ-mərhələ azad olunması istiqamətində əldə etdiyi uğurlardan qürur hissləri keçirdiyimizi bildiririk.

27 il Cəbrayıl həsrəti ilə yaşayan ahıl həmyerlilərimiz, Cəbrayılı kiçik yaşlarında məcburən tərk etmiş orta yaşlı insanlarımız, Cəbrayıl haqqında yalnız valideynlərindən eşitmiş gənclərimiz igid əsgərlərimiz rayonumuzun ərazisində addımladıqlarını görəndə sevincdən göz yaşlarını saxlaya bilmirlər.

Həmin vaxtdan başlayaraq ölkə iqtisadiyyatının dünya iqtisadi məkanına inteqrasiyası, elmin, təhsilin, mədəniyyətin, incəsənətin inkişafı və müasir dövlət quruculuğu üçün həyata keçirilən layihələrin nəticələri bu umidlərimizin əsassız olmadığını təsdiqlədi.

Siz ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyası ətrafında ölkəmizin iqtisadi, siyasi, sosial və hərbi qüdrətinin yüksəldilməsi istiqamətlərində apardığı məqsədyönlü fəaliyyəti öz məntiqi sonluğuna çatdırmaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək əzmindəsiniz. Bu gün Azərbaycan xalqının iqtidar-müxalifət də daxil olmaqla bütün zümrələri Sizin ətrafınızda birləşərək ölkəmizin milli mənafeyini və ərazi bütövlüyünün müdafiəsinə səfərbər olmuşdur.

2003-cü ildən başlayaraq Sizin rəhbərliyinizlə ölkədə həyata keçirilən uğurlu islahatlar və xüsusən silahlı qüvvələrimizin gücünün dünya səviyyəsinə qaldırılması hər bir vətəndaşımızda ordumuza və onun Ali Baş Komandanına inam hisslərini qat-qat artırdı.

Sizin son illərdə "Qarabağ düyünü"nün açılması istiqamətində dünyanın şər qüvvələrinin kürəyini yerə vuran qrossmeysterlərə məxsus gedişləriniz o qüvvələrin bir çoxunu neytrallaşdıra bildi. Bu problemin həlli üçün Sizin bilavasitə iştirakınızla aparılmış çoxsaylı danışıqlarda, müxtəlif beynəlxalq səviyyəli platformalarda, o cümlədən BMT-nin, Qoşulmamaq Hərəkatının, İslam Əməkdaşlığı Təşkilatının kürsülərindən beynəlxalq hüququn müddəalarına və tarixi həqiqətlərə söykənən inamlı və məntiqli çıxışlarınız dünyanın siyasi aləmində Azərbaycanın haqq işini tanıtdırdı.

Nəhayət, bu ilin iyul ayından indiyədək 30 ildən artıq bir müddətdə əzab-əziyyətini yaşadığımız münaqişənin həllini sürətlə yaxınlaşdıran qətiyyətli addımlarınız ölkə ictimaiyyətini vahid şəkildə ətrafınıza toplayaraq qələbəyə səfərbər etdi.

Sentyabrın 27-dən başlayaraq hərbi əməliyyatlar üçün verdiyiniz əmrlərin davamlı olaraq uğurla yerinə yetirilməsi ilə yanaşı bu müddətdə beynəlxalq səviyyədə edilən təzyiqləri məharətlə dəf etməyiniz, dünyanın aparıcı televiziya kanallarında Azərbaycanın haqlı mövqedə olduğunu əsaslı şəkildə sübut etməyiniz düşməni zəlil gündə qoydu və hər bir Azərbaycan vətəndaşında ölkə Prezidentinin dünya miqyaslı siyasətçi və hərbi strateq olduğunu bir daha sübut etdi.

Bütün Cəbrayıl camaatının adından Sizə və fəaliyyətinizə daim hərtərəfli dəstək verən Birinci vitse-prezident Mehriban xanıma bizlərə belə möhtəşəm qələbə sevincini bəxş etdiyinizə görə dərin minnətdarlığımızı bildiririk.

Sizə və ailə üzvlərinizə möhkəm cansağlığı, ailə səadəti və Azərbaycanın dünya dövlətlərinin sırasında daha da yüksək mövqe tutması yolunda böyük uğurlar arzulayırıq.

Bizim gözlərimiz Qarabağdadır, ordumuzun cəbhədəki yeni uğurlarını gözləyirik.

Bu gün "Torpaq - uğrunda ölən varsa, Vətəndir" devizi altında hər bir Azərbaycan vətəndaşı Vətən müharibəsində iştirak etməyi, lazım gələrsə şəhidlik zirvəsinə yüksəlməyi özünə şərəf hesab edərdi.

Əminik ki, yaxın günlərdə Sizin "twitter" səhifənizdə yeni rayonlarımızın, qəsəbələrimizin, kəndlərimizin, nəhayət Dağlıq Qarabağın işğaldan azad olduğu haqqında xəbərləri oxuyacağıq, Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunacaq.

Bununla Siz bir milyondan artıq vətəndaşlarımızın doğma yurdlarına qayıtmasını, əlli milyondan artıq azərbaycanlının bir yumruq kimi birləşməsini təmin edəcəksiniz.

Bundan əlavə, Siz mənfur düşmənlərimizin "böyük Ermənistan" xülyasının üstündən birdəfəlik xətt çəkmiş sərkərdə olaraq dünya tarixinə düşəcəksiniz. Çünki bu xülyanın təsirinin yönəldiyi Türkiyə, Rusiya və Gürcüstan xalqları ermənilərin özgə torpaqlarını ələ keçirmək alqoritmini Qarabağdakı hadisələrdən öyrənəcək və "böyük Ermənistan" xülyasını yalnız virtual aləmdə saxlamaq üçün əllərindən gələni edəcəklər.

Allah Sizi və rəşadətli ordumuzu qorusun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

*Dərin hörmət və ehtiramla,*
*Cəbrayıl ziyalılarından bir qrupu*

*Ramiz Hümbətov - Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor, Həsən Hüseynov - Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor, Havar Məmmədov - Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor, Qəzənfər Kazımov - Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, Novruz Quliyev - AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor, Çingiz Quliyev - Əməkdar həkim, tibb elmləri doktoru, professor, Əhməd Məmmədov - Əməkdar mühəndis, texnika elmləri doktoru, professor, Nailə Verdizadə - Kimya elmləri doktoru, professor, Hüseyn İbrahimov - Fizika-riyaziyyat elmləri doktoru, professor, Qənimət Səfərov - İqtisad elmləri doktoru, professor, Farda İmanov - Coğrafiya elmləri doktoru, professor, Eldar Hüseynov - Tibb elmləri doktoru, professor, Əyyub Kərimov - Fəlsəfə elmləri doktoru, professor, Sahib Fərzəliyev - Texnika elmləri doktoru, professor, Tahir Kazımov - Əməkdar mədəniyyət işçisi, Yaqut Abdullayeva - Əməkdar artist, Kərəm Əliyev - İqtisad elmləri namizədi, Zemfira Mehdizadə - Fizika-riyaziyyat elmləri namizədi, Ramiz Hüseynov - Texnika elmləri namizədi, Natiq Əhmədov - Texnika elmləri namizədi, dosent, Arzuman Bayramov - Texnika üzrə fəlsəfə doktoru*

*Bakı şəhəri*

---

**Hörmətli və əziz Prezidentimiz.**

İndi biz, bütün Azərbaycan hər gün, hər saniyə qələbə sevinci ilə yaşayırıq. O günü səbirsizliklə gözləyirik.

Kaş əsgər yaşında olaydım və çox istəyərdim ki, Vətənimizin bu günündə, Qarabağ Qələbəsində mənim də payım olsun.

Mənim əmim Samir Xasıyev də torpaqlarımızın azadlığı uğrunda şəhid olub, Azərbaycanın Milli Qəhrəmanıdır. Mən əmimlə fəxr edirəm. Qələbədə payım olmasa da, yaşım çatanda respublikamızın sərhədlərinin yadelli işğalçılardan qorunmasında mütləq iştirak edəcəyəm.

Hörmətlə,

**Xasıyev Nicat,**
*Bakı şəhəri 82 saylı orta məktəbin 9-cu sinif şagirdi*

---

**Salam, İlham baba.**

Mənim 11, qardaşım Ziyanın 7 yaşı var. Biz hərbçi övladlarıyıq. Sizə və Ordumuza çox təşəkkür edir və uğurlar arzulayırıq.

Sizin sayənizdə ordumuz bu gün çox uğurla irəliləyir. İnşallah, tezliklə qələbə qazanarıq və atam da böyük zəfərlə evimizə geri dönər.

Allah Azərbaycanı və Sizi qorusun! Biz hər zaman Sizinləyik!

Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Qafarlı Səmidə Rəşad qızı,**
*Gəncə şəhəri, şagird*

---

**Azərbaycan xalqının əvəzedilməz möhtərəm Prezidenti, cənab Ali Baş Komandan.**

Siz artıq biz ağdamlıların 27 illik həsrətinə son qoyursunuz. Ağdam camaatı, bütün qarabağlılar Sizin arxanızdadır, bütün xalq bu haqq savaşında Sizinlə həmrəydir. Bu gün hər bir azərbaycanlının qəlbi Qarabağla döyünür.

Cənab Prezident, mənim iki övladım hazırda döyüş bölgəsində igid əsgərlərimizlə çiyin-çiyinə torpaqlarımızın azadlığı uğrunda mübarizə aparır. Mən bir ana kimi bununla qürur duyuram.

Allahdan bircə arzum var. Ağdamımız, Qarabağımız yağı düşməndən tezliklə azad edilsin. Sizin Ağdama ilk gəlişinizdə 27 ədəd qurban nəzir etmişəm ki, Sizin ayaqlarınız altında kəsilsin. Çünki 27 ildən sonra bizə həyat bəxş edən Sizsiniz, əziz xilaskarımız.

Biz Sizinləyik! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Nərminaz Nəcəfova,**
*Ağdam rayon 36 saylı məktəbin direktoru,*
*Binəqədi rayonu, Mehdiabad qəsəbəsi*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:

# "Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir.

Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib.

Əldə olan məlumata görə, raket atəşi nəticəsində 9 nəfər (o cümlədən 4 qadın) həlak olub, 34 nəfər yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan vurulub.

Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib. Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb.

Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.

Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər.

Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır.

Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Əziz həmvətənlər!

Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!".

## "Hər bir Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua edirəm"

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində paylaşım edilib.

AZƏRTAC-ın məlumatına görə, paylaşımda deyilir:

"Hər bir Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua edirəm! Uca Tanrı Vətən naminə bu müqəddəs mübarizədə onlara yar olsun! Qarabağ Azərbaycandır!"



# Öz Vətənini sevən vətəndaşlar Azərbaycan üçün ən vacib aktivlər, dəyər olacaq



Emin ƏMRULLAYEV:

## "Müəllimliyə gənclərin gəlişi 10 il bundan əvvəlki dövrlərlə müqayisə edildikdə fərqli bir səviyyədədir"








*Xəbər verildiyi kimi, Təhsil naziri Emin Əmrullayev avqustun 30-da Real TV-də "Mir Şahinin vaxtı" verilişinin qonağı olub. Müsahibəsində səsləndirdiyi bir çox fikirlərin bu gün də aktuallıq kəsb etdiyini nəzərə alaraq bir daha oxucuların diqqətinə çatdırırıq.*

- **Daha çevik, daha yaradıcı, dəyişikliyə tez uyğunlaşa bilən vətəndaşlar, o cümlədən də təbii ki, milli-mənəvi dəyərlərini itirməyən, öz Vətənini, öz ölkəsini sevən vətəndaşlar Azərbaycan üçün birmənalı olaraq ən vacib aktivlər, dəyər olacaq. Yəni, inkişaf bu istiqamətdə getməlidir.**

- **Biz müəllimi ümumi zaman oxuna qoysaq, Azərbaycan məktəbi tarixinə baxsaq, XIX əsrin sonu XX əsrin əvvəllərində, ümumiyyətlə, müəllim 100 il bundan əvvəl də verilmiş kənddə, qəsəbədə əsas informasiya daşıyıcısı idi... Müəllimin öyrədən olaraq, tərbiyəçi olaraq, nümunə olaraq müqəddəsliyi daim qalmalıdır.**

- **Müəllimlərlə bağlı yaxşı xəbər ondan ibarətdir ki, son dövrlərdə müəllimlərin istər əməkhaqlarının artırılması, istər onların rəğbətləndirilməsi istiqamətində çox böyük addımlar atılır, çox böyük işlər görülür. Fürsətdən istifadə edib ölkə rəhbərliyinə təhsil işçiləri adından öz minnətdarlığımı bildirirəm.**

- **Müəllimliyə gənclərin də gəlişi və yüksək bal toplayan, müəllim olmaq istəyən və s. bu işlər onu göstərir ki, müəllim nüfuzu 10 il bundan əvvəlki dövrlərlə müqayisə edildikdə fərqli bir səviyyədədir. Bu, nailiyyətdir və buna sevinməliyik.**

- **Cənab Prezidentlə videokonfransda bir neçə tapşırıqlar verildi. Ümumi fəlsəfi, konkret, uzunmüddətli hədəflər qeyd edildi. İlk növbədə, təhsilin məzmunu, yəni, biz uşaqlarımıza nə öyrədirik və niyə öyrədirik sualı önəmli məsələdir.**

- **Olimpiadalar niyə uğurludur? Çünki hərə öz işini düzgün qurur, uşaqlar oxuyur, müəllimlər dərs keçir, valideynlər dəstəkləyir, koordinatorlar olimpiadaların, müsabiqələrin dürüstlüyünü təmin edir.**

- **Nazirliyin öz işini düz görməyinə mən söz verirəm, qurumun rəhbəri olaraq. Amma ailələrdə ev mühitinin yaxşılaşdırılmasına biz dəstək göstərməyə hazırıq və bu işi etməliyik. Lakin hər birimiz, valideynlər öz məsuliyyətini başa düşməlidir ki, insanın yetişməsində onun çox böyük payı var.**




# "Ermənilərin uydurduqları yalanlara inanmırıq"

## Müharibə əcnəbi tələbələrin gözü ilə

**Oruc MUSTAFAYEV**

Sentyabrın 27-dən erməni silahlı birləşmələrinin cəbhə xəttində törətdiyi təxribatlara cavab olaraq rəşadətli Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları davam edir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuz bir sıra yüksəklikləri, kəndləri, yaşayış məntəqələrini düşməndən azad edib, xalqımıza qələbə sevinci yaşadıb. Bununla belə, cəbhə bölgəsində, ətraf şəhər və rayonlarda mülki şəxsləri raket zərbələrinə tutan düşmən əldə olunmuş atəşkəs razılaşmasına məhəl qoymayaraq Gəncədə növbəti dəfə soyqırımı aktı həyata keçirib. Ölkəmizin ayrı-ayrı universitetlərində təhsil alan əcnəbi tələbələr "Azərbaycan müəllimi" qəzetinə açıqlamalarında azğın düşmənə qarşı mübarizədə yanımızda olduqlarını, Azərbaycanın haqq işini dəstəklədiklərini, əzəli torpaqlarımızın tezliklə düşməndən azad olunacağı günü səbirsizliklə gözlədiklərini deyirlər.


**Asad Ul İslam**


**Nakibullah Əzizi**


**Osman Muhammed Said**


**Mostafa Alvan Ghanim**


**Mohammad Abubakar**


**İmtiaz Ahmad**

### "Qarabağ Azərbaycanın tarixi torpağıdır"

*Asad Ul İslam,*
*Pakistan vətəndaşı, Bakı Mühəndislik Universitetinin tələbəsi*

- Mən pakistanlıyam, Xırdalanda yaşayıram. Bakı Mühəndislik Universitetində "İnformasiya texnologiya menecmenti" ixtisası üzrə magistrəm. Qarabağ Azərbaycanın tarixi torpağıdır və Qarabağı düşməndən azad etmək Azərbaycanın, azərbaycanlıların haqqıdır. Azərbaycanlılar öz torpaqlarının müdafiəsi üçün vuruşur. 1990-cı ildən bəri ermənilər Azərbaycan torpağını zəbt ediblər. Hətta beynəlxalq mənbələrdə erməni işğalına məruz qalan Azərbaycan torpaqları və Qarabağda nə qədər insanın qətlə yetirilməsinə dair rəqəmlər var. Erməni terrorçuları çox sayda mülki insanlar öldürüb. Onların arasında qadınlar, kişilər, yaşlılar, hətta uşaqlar da var. Düşmənin ən son hücumu Gəncəyə olub, günahsız insanlara qarşı atəş açıblar. Bunun özü bir cinayətdir. Əslində onların mülki insanları hədəfə alması gözlənilən idi. Çünki onlar Xocalı soyqırımını törətmişdilər. Hazırda onlar böyük məğlubiyyət yaşayır və yalan xəbərlərlə özlərini aldadırlar.

Azərbaycanın özünü düşməndən qoruması onun haqq işidir. Mən buradan dünyanın ən güclü ölkələrinə müraciət edərdim ki, bu situasiyaya nəzər yetirsinlər. Məsələni həll yoluna qoysunlar. Beynəlxalq təşkilatlara müraciət edərdim ki, məsələni öz maraqlarına görə deyil, insan haqlarının qorunması üçün Azərbaycanın ərazi bütövlüyünün təmin olunması şərtilə sülh yolu ilə həll etsinlər.

### "Ümid edirəm ki, Azərbaycanın haqlı tələbləri təmin ediləcək"

*Nakibullah Əzizi,*
*Əfqanıstan vətəndaşı, Azərbaycan Memarlıq və İnşaat Universitetinin magistri*

- Son bir neçə gündə baş verən hadisələr hamı kimi məni də üzür. Humanitar atəşkəs haqqında razılaşmaya baxmayaraq, Ermənistan Azərbaycanın müxtəlif bölgələrinə raket zərbələri endirməyə davam edir. Dinc insanlar, mülki obyektlər Ermənistan ordusu tərəfindən bilərəkdən hədəfə alınır. Dinc şəhərlər və onların sakinləri məhv edilir. Televiziyadan izlədik, Gəncədə balaca uşaqlar yaralanıb, üzgözləri qanın içində... Bu, dəhşətdir, həmin şəkillərə sakit baxmaq olmur. Onların günahı nədir, nəyə görə belə hadisələri görməlidirlər bu yaşda? Bütün bu hallar insanlıq üçün yolverilməzdir. Müşahidələrim də onu deməyə əsas verir ki, Azərbaycan Ordusu döyüşlərdə onlardan fərqli olaraq düşmənin yalnız hərbi obyektlərinə zərbələr endirir. Orada ölənlər hərbçilərdir, dinc sakinlər deyil. Sizin əsgərlərin dinc əhali ilə işləri yoxdur. Ümid edirəm ki, Azərbaycanın haqlı tələbləri təmin ediləcək, işğal altında olan torpaqlarınız azad olunacaq, insanlar evlərində rahat yaşayacaqlar.

### "Dünya ermənilərin yalanlarına inanmamalıdır"

*Osman Muhammed Said,*
*Sudan vətəndaşı AzMİU-nun "İnşaat" fakültəsinin IV kurs tələbəsi*

- Artıq 4 ildir ki, Azərbaycandayam, burada çoxlu dostlarım, tanışlarım var. Qardaşım 9 il əvvəl burada oxuyub, bacılarım da hazırda Tibb Universitetində təhsil alırlar. İndi Azərbaycan mənim ikinci ölkəm kimidir. Ona görə burada, cəbhədə baş verənləri diqqətlə izləyirəm. İnsanların, uşaqların həlak olması xəbərləri gəlir, insanlar kədərlənir. Bu vəziyyət bizi də narahat edir. Ermənilərin uydurduqları yalanlara inanmırıq. Terrorçu onlardır, dinc insanları - uşaqları, qadınları öldürürlər. Sizin torpaqları ələ keçiriblər, insanları ev-eşiklərindən didərgin salıblar. İnsanlığa sığmayan vəhşiliklər törədirlər, amma özlərini humanist, sülhsevər xalq kimi göstərməyə çalışırlar. Biz bunları yaxşı bilirik. Sizin xalqınız çox mehriban və istiqanlıdır. Bunu həmişə hiss eləmişəm, ətrafımdan, dostlardan özümə qarşı həmişə isti münasibət görmüşəm. Ona görə bu gün dünya ermənilərin yalanlarına inanmamalıdır, Azərbaycanın dinc vətəndaşlarına qarşı yönələn bu hücumlara susmamalıdır.

### "İraq xalqı bu gün Azərbaycan xalqının yanındadır"

*Mostafa Alvan Ghanim,*
*İraq vətəndaşı, Xəzər Universitetinin mühəndislik fakültəsinin tələbəsi*

- Dağlıq Qarabağın erməni işğalından azad edilməsi Azərbaycan xalqının bu gün yazdığı ən parlaq tarixi qalibiyyətlərindən biridir - bu tarixi yazan bir çox qəhrəman görürük. Azərbaycanın Qarabağ torpağında baş verənlər İraqın Mosul şəhərində baş verənlərlə eynidir və İraq xalqı terrorizmə qarşı müharibəsində Azərbaycan Respublikasına, xalqına və hökumətinə dəstək verməyi unutmur. İraq xalqı bu gün Azərbaycan xalqının yanındadır. Ümid edirəm, sülh qalib gələcək. Gəncə şəhərində günahsız vətəndaşların və müdafiəsiz uşaqların bombalanması yolverilməzdir, beynəlxalq ictimaiyyət və İslam dünyası bu qanun pozuntularına qarşı mübariz olmalıdır. Bütün şəhidlər üçün Allahdan rəhmət, bütün yaralılara şəfa diləyirəm.

### "Qarabağ Azərbaycana məxsusdur"

*Mohammad Abubakar Mohammad,*
*Nigeriya vətəndaşı, Xəzər Universitetinin Afrika tələbələri birliyinin rəhbəri*

- Mənim fikrim budur ki, Ermənistan qanunun aliliyinə hörmət etməlidir. Təbii olaraq Azərbaycana məxsus olan bu bölgəni boşaltmalıdır. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə raket atəşinin açılması ilə çoxlu sayda mülki şəxs həlak oldu və bir çox insan yaralandı. Ermənilərin bu hərəkəti BMT, AB və dünya tərəfindən tamamilə qınanmalıdır. Azərbaycanda bir xarici tələbə olaraq Azərbaycan haqqında araşdırmalarımı bu ölkəyə gəlməmişdən öncə etmişdim. Azərbaycan sülhpərvər ölkədir, insanları qayğıkeş və sevimlidirlər. Şübhəsiz ki, Qarabağ bölgəsi Azərbaycana məxsusdur. Buna görə də bölgə qanuni sahibinə geri qaytarılmalıdır.

### "Bu çətin dövrdə siz tək deyilsiniz: Pakistan Azərbaycanın yanındadır"

*İmtiaz Ahmad,*
*Pakistan vətəndaşı, Xəzər Universitetinin mühəndislik fakültəsinin tələbəsi*

- Bir pakistanlı olaraq Qarabağ bölgəsindəki mövcud vəziyyət məndə narahatlıq və təəssüf hissi doğurur. Bu, Ermənistanın Azərbaycana və mülki əhalisinə təcavüzünün nəticəsidir, insanlığa ziddir. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin qanunsuz işğalı beynəlxalq hüquqa ziddir və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə xələl gətirir. Gəncə hadisəsi, Ermənistanın günahsız vətəndaşları hədəfə alan əsl vəhşi simasıdır. Bu, bütün bölgənin dincliyini və təhlükəsizliyini poza bilər. Ermənistan hərbi əməliyyatlarını dayandırmalıdır. Pakistan dünyada Ermənistanı bir dövlət kimi tanımayan yeganə ölkədir. Pakistan Azərbaycanın haqq işinə ardıcıl və birmənalı dəstək verir. Bir pakistanlı olaraq mesajımı Azərbaycana və xalqına çatdırmaq istəyirəm ki, bu çətin dövrdə siz tək deyilsiniz, Pakistan Azərbaycanın yanındadır. Qarabağ Azərbaycana məxsusdur və tezliklə sizin olacaq.

# Cəbrayıllı müəllimlərin qələbə sevinci

4 oktyabr 2020-ci il. Ali Baş Komandan İlham Əliyev 27 il əvvəl mənfur ermənilər tərəfindən işğal olunan Cəbrayılın azad olunduğunu elan edir. Necə də sevindirici, qürurverici xəbərdir. İllərdir vətən, torpaq həsrəti ilə yaşayan xalqımız üçün bundan gözəl müjdə ola bilərdimi? Əlbəttə ki, yox.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatına cavab olaraq Ali Baş Komandan İlham Əliyevin başçılığı altında həyata keçirilən genişmiqyaslı əks-hücum əməliyyatları nəticəsində ordumuzun işğal altında olan torpaqlarımızın bir hissəsini mənfur düşməndən azad etməsi hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur hissi yaradır, Qarabağın hər bir qarışının azad olunacağına inamı daha da artırır.




## Doğma torpaqlarında dərs deyəcəkləri günü səbirsizliklə gözləyirlər

**Niyazi RƏHİMOV**

Qeyd edək ki, bu günlərdə Təhsil Nazirliyi ictimaiyyətə işğaldan azad olunan Cəbrayıl rayonunun təhsil statistikasını təqdim edib. Statistikaya görə Cəbrayıl rayonunda işğaldan əvvəl, yəni 1992-1993-cü tədris ilində 72 məktəbdə 11020 şagirdin təlim-tərbiyyəsi ilə 1582 müəllim məşğul olub. 2020-2021-ci tədris ilində isə Cəbrayıl rayonunun 41 məktəbi fəaliyyət göstərir. Bu təhsil ocaqlarında ümumilikdə 1055 müəllim 9045 şagirdin təlim-tərbiyəsinə cəlb olunub.

Fürsətdən istifadə edib Cəbrayıl rayonunun təhsil işçiləri, şagirdlərlə söhbətləşdik. Onların bu sevinc dolu günlərində hansı hissləri keçirdiklərini öyrəndik.

### "Bir vaxtlar şagird kimi təhsil aldığım məktəbdə bu gün müəllim kimi fəaliyyət göstərməyi səbirsizliklə gözləyirəm"

Cəbrayıl rayonu 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Şahnaz-xanım Şükürzadə bildirir ki, Cəbrayıl işğal olunan zaman onun 11 yaşı hələ tamam deyilmiş. O, hər dəfə peyk vasitəsilə kəndlərinin xəritəsinə baxanda bağrının tikə-parça olduğunu, lakin həmin günlərin artıq arxada qaldığını deyir: "Şükürlər olsun ki, bu gün Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi, qüdrətli ordumuzun yenilməz şücaətilə Cəbrayılımız işğaldan azad olunub. Zəfər bayrağımız doğma Cəbrayılımızda dalğalanır. Bir Azərbaycan müəllimi kimi mənim də üzərimə şərəfli vəzifələr düşür. Bir vaxtlar şagird kimi təhsil aldığım məktəbdə bu gün müəllim kimi fəaliyyət göstərməyi səbirsizliklə gözləyirəm".

### "Ata, gözlərin aydın, Cəbrayıl alındı"

Cəbrayıl rayon 8 nömrəli tam orta məktəbin müəllimi Mirzə Mirimli də sevinc dolu hisslərini bizimlə bölüşüb. Mirzə müəllim deyir ki, doğma torpağa, yurda çox bağlı adamdı. Məhz elə buna görə də o ali məktəbi bitirən kimi doğma kəndlərində işləməyə can atıb. Doğma yurdlarının işğal olduğu günləri isə belə xatırlayır: "1993-cü ilin avqustunda sonsuz ürək ağrısı ilə Cəbrayıldan ayrıldıq. Məskunlaşdığımız çadır şəhərciyində biz müəllimlər şəraitin dözülməz olduğuna baxmayaraq, bütün şagirdləri təhsilə cəlb etdik. İkiqat qüvvə ilə işləyərək, Cəbrayıl təhsilinin ənənələrini əzmlə davam etdirdik. O vaxtdan 27 il ötsə də, ümidlə yaşadıq, dövlətimizə, Prezidentimizə inamımız sonsuz oldu". O, Cəbrayılın işğaldan azad olunduğu xəbərini oğlundan aldığını da sözlərinə əlavə edib: "27 sentyabrdan başlamış Vətən Müharibəsinin səkkizinci günü idi. Azərbaycan ordusunun zabiti olan oğlumdan bir zəng gəldi: "Ata, gözlərin aydın, Cəbrayıl alındı"… Bu bənzərsiz anları bizə bəxş edən Ali Baş Komandanımıza, Müzəffər Ordumuza dərin minnətdarlığımı bildirirəm".

### "Müəllimlik fəaliyyətimi doğma kəndimizdə davam etdirəcəyəm"

Cəbrayıl rayonu İ.Tahirov adına Mehdili kənd tam orta məktəbin müəllimi, "Qabaqcıl təhsil işçisi" döş nişanlı Hidayət Səfərli keçirdiyi sevinc dolu hissləri sözlə ifadə etməyin çox çətin olduğunu deyir. O, çətin, ağır günlərin artıq geridə qaldığını və bu hissləri onlara yaşatdığına görə ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevə dərin minnətdarlığını bildirir: "Səksəninci illərin sonlarında kəndimizdəki doğma məktəbə böyük arzu və ümidlərlə gəldim. Az müddətdə şagirdlərimə özümü sevdirdim, kollektivin hörmətini qazandım. Heç ağlıma gəlməzdi ki, dərs ilinin sonunda vidalaşdığım şagirdlərimi yeni dərs ilində bir daha doğma sinfimizdə görə bilməyəcəyəm. Bədxah qonşularımız neçə-neçə arzularımı yarımçıq qoydu. O illərdən mənə acılı-şirinli xatirələrlər qaldı. Çətinliklərlə dolu köçkünlük illərində də çadır düşərgəsində, sonralar məcburi köçkün qəsəbəsində müəllimlik fəaliyyətimi davam etdirdim, vətənpərvər və hərtərəfli biliyə malik gənclərin hazırlanmasında qüvvə və bacarığımı əsirgəmədim. Harada oldumsa, doğma yurd yerlərimizə dönəcəyimizə olan inamımı itirmədim, bu arzu, istəklə yaşayıb müəllim olaraq fəaliyyət göstərdim.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində Cəbrayıl şəhərinin və bir sıra kəndlərimizin işğaldan azad olunması bu inamımda yanılmadığımı göstərdi. Sevincimin hədd-hüdudu yoxdur, sadəcə olaraq bunu sözlə ifadə etmək olduqca çətindir. Doğma yurd yerlərimizə dönəcəyim və müəllimlik fəaliyyətimi doğma kəndimizdə davam etdirəcəyim günün çox yaxın olduğunu hiss edirəm, o günü səbirsizliklə gözləyirəm".

### "Bilirdik ki, gec-tez torpaqlarımız işğaldan azad olunacaq"

Cəbrayıl rayonu Sirik kənd tam orta məktəbinin müəllimi Zəfər Məmmədov ağrılı, acılı uşaqlıq və gənclik illərindən söhbət açdı. O, bu çətinliklərə sinə gərdiklərini və doğma yurdlarının azad olacağına ümidlərini heç vaxt itirmədiklərini sözlərinə əlavə etdi: " Ali Baş Komandan, ölkə başçısı İlham Əliyevə həmişə inanmışıq. Bilirdik ki, gec-tez torpaqlarımız işğaldan azad olunacaq. Bu günü yaşamaq çox gözəl duyğu, çox qəribə hissdir.

İnsan həyatı boyu xoş, sevindirici anlarla yanaşı, ağır günlərin vurduğu silinməz yaraları da xatırlayır. Bu gün müstəqil dövlətimizin uğurları fonunda ağrılı, acılı uşaqlıq, yeniyetməlik, gənclik illərini canlandırıram. Doxsanıncı illərin amansız dalğasını yaşamış bir şagird kimi bütün çətinlikləri geridə qoya bildik. Məcburi köçkün həyatı yaşayan, doğmalarını itirmiş on səkkiz yaşlı uşaq üçün ali məktəbə daxil olmaq sevinci həyatda qazandığım uğurların başlanğıcı idi. O illərdə gələcəkdə öz şagirdlərimə xalqımızın tarixini, ədəbiyyatını, coğrafiyasını daha dərindən öyrətmək üçün var qüvvəm ilə elmi biliklərə yiyələnirdim. Qarşımda bir məqsəd var idi. Müəllim olmaq və doğma torpaqlarımızda şagirdlərə dərs demək. Şükürlər olsun ki, arzuma çatdım".

### "İndi səbirsizliklə görmədiyim ata yurduma gedəcəyim günü gözləyirəm"

Cəbrayıl rayonu Sirik kənd tam orta məktəbinin IX sinif şagirdi Atilla Əliyev də öz hisslərini bizimlə bölüşüb. O, heç vaxt görmədiyi doğma dədə-baba yurduna gedəcəyi günü səbirsizliklə gözlədiyini deyir: "Həmişə düşünürdüm ki, rayonumuz işğaldan azad olunsun, mən də tətilləri rayonumuzda keçirərəm. Ancaq dərhal düşündüm ki, yox, onsuz da bizim rayonumuz işğaldan azad olunan kimi öz rayonumuza köçəcəyik və orda yaşayacağıq. Valideynlərim həmişə "CƏNNƏT QARABAĞ" deyir. Həmişə düşünürəm ki, ilk gedəcəyim yer indi oxuduğum məktəbin oradakı binasının yerini ziyarət etmək olacaq. Artıq o gün gəlib çatıb. Müzəffər ordumuz Cəbrayıl şəhərini və bir sıra yaşayış məntəqələrini işğaldan azad edib. İndi səbirsizliklə görmədiyim ata yurduma gedəcəyim günü gözləyirəm".

# Azərbaycan şagirdləri düşmən hədəfində

**Oktyabrın 11-də gecə saatlarında Gəncənin mərkəzi hissəsində çoxmənzilli yaşayış binalarının Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub. Həmçinin 16-sı qadın, 6-sı azyaşlı olmaqla 35 nəfər yaralanıb, 10-dan artıq çoxmənzilli binaya, 100-dən çox müxtəlif təyinatlı obyektlərə, o cümlədən məktəb binalarına ziyan dəyib.**

**Yaralananlardan 10 nəfəri məktəblidir. Ömər Mehdiyev Gəncə şəhəri 32 nömrəli tam orta məktəbin 2-ci, Səlim Mustafazadə 11-ci, Murad Cavadov 3-cü, Dinarə Muradova 2-ci, Rauf Muradov 4-cü, Hüseyn Əliyev 3-cü, Sevinc Rəhimova 6-cı sinif şagirdləridir. Aysu Əliyeva Gəncə şəhəri 20 nömrəli tam orta məktəbin 10-cu, Şəfa və Şəmiddin Şirinovlar 25 nömrəli tam orta məktəbin 6-cı və 7-ci sinfində təhsil alırlar.**













# Hərbiçi olmaq istəyirdi

## Növbəti şəhid Ağcabədi məktəblisi oldu



Bu ölüm Ağcabədi rayonu üçün düşən artilleriya mərmilərindən, topdan daha ağır oldu. Bir top mərmisi yeməkxananın altını üstünə gətirdisə, bu ölüm bütün kəndi göynətdi, bir ölkəni göz yaşına boğdu. Erməni təcavüzünün hədəfində bu dəfə də bir şagird vardı.

Oktyabrın 4-də düşmənin növbəti hədəfi Ağcabədi rayonunun Sarıcalı və Taynaq kəndləri idi. Artilleriya atəşi nəticəsində Sarıcalı kəndində bir ev tamamilə yandı. Amma şanslıydılar ki, o evdə kimsə yoxuydu. Taynaq kəndi isə o dəqiqələrdə şansdan çox uzaq idi. Top mərmisi yeməkxanaya düşdü və nəticədə kənd özünün hələ böyüməkdə olan bir pöhrənini itirdi. 2006-cı il təvəllüdlü Fərid İsgəndərov dağıntılar altında qalaraq həlak oldu.

O Fərid ki, 3 bacının sonradan dünyaya gəlmiş yeganə qardaşı idi. Həmin Fərid ki, saçının telindən dırnağının ucuna qədər bir vətənpərvər kimi yetişdirilmişdi. Anasının laylası ilə hopmuşdu iliyinə vətən sevgisi. Ancaq keçmiş döyüşçü olan əmisinin, şəhid dayısının da rolu az deyildi düşüncələrinin formalaşmasında. O, özündən əvvəlki nəsil kimi "Məlikməmməd nağılı" ilə böyüməmişdi. Real qəhrəmanlıq hekayələri ilə axmışdı ruhuna igidlik, dönməzlik, qətiyyət, kişilik.

### Şəhid dayısının qisasını almaq istəyirdi

IX sinif şagirdi üçün kişilik deyilmi? İsgəndərovlar ailəsi uşaqları od-alovdan uzaqlaşdırıb Bakıya göndərəndə o niyə getmədi? Nədən qorxursuz?", - dedi ailəsinə. Bakıya getməkdən imtina etdi. Kənddə oturub döyüş təcrübəsi olan əmisi ilə erməni təcavüzkarlığına qarşı müqavimət göstərmək istədi. "Mən burdayam", deyərək erməniyə də, ölümə də meydan oxudu. Əmisi Fətəli deyir ki, Fərid də hərbi təhsil almaq istəyirdi: "Çox maraqlanırdı. Tez-tez döyüşlər barədə söz salır, mənə çoxlu suallar verirdi. Artıq hazırlaşmağa da başlamışdı. Hərbçi olmaq istəyirdi. Bu da təəccüblü deyil. 19 yaşında şəhid olan dayısı Rabil Quliyevin qisasını alacağı arzusu ilə böyümüşdü. Səliqəli, təmiz uşaq idi. Ata-anasına qarşı diqqətli, çox düşüncəli idi. Əminəm ki, yaxşı da hərbçi olacaqdı".

**Ruhiyyə DAŞSALAHLI**

### Taynaq kəndinin şanssız günü

Amma olmadı. Məktəbli Fərid İsgəndərovun o, hələ bir kitabını oxuyub bitirmədən ömrü bitdi. Dəftəri yazılmadan, qələminin mürəkkəbi bitmədən bitdi ömrü. Əmisi Fətəli o günü belə xatırlayır: "Qardaşımın işlətdiyi kafeyə getmişdi. 20 dəqiqə olmazdı heç. Qardaşım Ziyafəddin ilə bir yerdəydik. Bir az oturduq. Sonra mən kənd icra nümayəndəliyinə girdim. Ordan top atəşinin səsinə çıxdım. Çıxanda gördüm ki, qardaşımın işlətdiyi yeməkxanaya düşüb. Qardaşımla Fərid evə qayıtmağa hazırlaşırdılar. Ziyafəddin onu küçədə gözləyib. O da kafeyə nəsə götürməyə qayıdıb. Həmin vaxt ermənilərin atdığı toplardan biri kafeyə düşüb".

Fətəli İsgəndərov deyir ki, o günə qədər ermənilərin ağır artilleriyadan kəndə tuşladığı mərmilər Taynaqın qırağındakı boş sahələrə düşürdü. O gün düşmən mərmisi hədəfini vurdu. Hədəfdə isə bir məktəbliydi.

### Ağıllı, tərbiyəli şagirdlərdən idi

Fəridin təhsil aldığı, dayısı Rabil Quliyevin adını daşıyan Taynaq kənd tam orta məktəbinin direktoru Ələsgər Məmmədov şagirdini nəinki tanıyır, onun haqqında çox yüksək fikirdədir: "Dayısının adını daşıyır məktəbimiz. Üzündən dayısına oxşayırdı. Elə taleyi də ona bənzədi. O da erməni silahı ilə həyata "əlvida" dedi. Bütün gözəl sözlərə layiq uşaq idi. Ağıllı, tərbiyəli şagirdlərimizdən idi. Səliqəli, məktəbin işlərində fəal idi. Məktəbimiz üçün də, kəndimiz üçün də çox böyük itkidir".

### Xatirələrdə rəqsi ilə yaşayır

Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Aytəkin Hacıyeva Fəridin məktəbə ayaq basdığı ilk illəri belə xatırlayır: "Fərid çox gözəl uşaq idi. Özü də çox qəşəng rəqs edirdi. Hələ birinci sinifdə oxuyanda yuxarı sinifdə təhsil alan qız şagirdimizlə rəqs edirdi. Bütün tədbirlərdə hamı onların rəqsini gözləyirdi. Fərid ancaq o qızla rəqs elədi. O, XI sinfi bitirib gedəndən sonra Fərid başqa heç kimlə rəqs etmədi tədbirlərdə".

### "Xasiyyəti ilə hamının sevimlisi idi"

Təşkilatçı müavin Fatma Quliyeva da Fəridi gözəl rəqsi, üzüyola xasiyyəti, ağır təbiəti, sakit baxışları ilə xatırlayır: "Fərid əmimin nəvəsidir. Hamımızın sevimlisi idi. Məktəbimizin fəal şagirdlərindən idi. Xasiyyəti ilə hamının sevimlisi idi".

### Bu, ÜÇ oldu!

Daha bir məktəbli, IX sinif şagirdi Fərid İngəndərov da erməni təcavüzünün saysız qurbanları siyahısına düşdü.3 bacının bircə qardaşı, ata-anasının qürur yeri idi, millətin daş yaddaşına çevrildi. Onun ölümüylə Vətən Müharibəsi başlayandan bəri şəhid verdiyimiz məktəblilərin sayı 3-ə çatdı.

Qeyd edək ki, Ermənilərin Naftalan şəhəri atəşə tutması nəticəsində Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin şagirdləri - 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova da həlak olub.



# "Mən də döyüşlərdə iştirak etməyə hazıram"

"Düşmənin təxribatlarına cavab olaraq əks-hücuma keçən şanlı ordumuzun qələbələri hər birimizi sevindirir. Vətənimizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə canından keçən şəhidlərimizə Allah rəhmət eləsin. İndi onların ruhu sevinir. Ona görə ki, uğrunda canından keçdikləri Vətən torpağı artıq düşmən tapdağından azad olunur". Bu sözləri Olimpiya və ikiqat dünya çempionu, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində bildirib.

*Fərid MANSUROV,*
*Olimpiya və ikiqat dünya çempionu*

## "Erməni təmsilçisini məğlub edərək dünya çempionu oldum"

**Rəşad ZİYADOV**

- Vətən sözlə ifadə olunmayan, insanın canınından, qanından qiymətli bir varlıqdır: Fərd olaraq hər bir kəs Vətəni qəlbində yaşadır. Vətənimiz olan Azərbaycan bizim hüzur tapdığımız bir yerdir. Təbii ki, insan öz canını çox sevir. Amma, Vətən görün nə qədər şirin və doğma bir hissdir ki, onun uğrunda hər birimiz canımızı gözümüzü qırpmadan qurban verə bilərik. Bir şeyi də xüsusi qeyd etmək istərdim ki, biz mənfur və hiyləgər bir düşmənlə mübarizə aparırıq. Onlar işğalçılıq siyasəti yürüdürlər, biz isə öz torpaqlarımızı işğaldan azad edirik. Bu məsələdə xalqımızın birliyini qeyd etmək istərdim. Bu gün hər bir Azərbaycan vətəndaşının istəyi və arzusu birdir. Xalqın bu məsələdə birliyi çox vacibdir. Hamı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşib. Ordumuz da xalqımızın sevincini və onun inamını bilir. Bəli, qürurla deyə bilərik ki, bu gün Azərbaycan ordusu öz ərazi bütövlüyünü təmin edir. İşğalçını yerində otuzdurmağı bacarır. Bunun nəticəsidir ki, ermənilər döyüşdə öz postlarını, silah-sursatlarını, tanklarını, zirehli maşınlarını qoyub qaçırlar. Cəsur, döyüşkən, qəhrəman ordumuz düşmən tapdağı altında olan yaşayış məntəqələrimizi birbir azad edir. Mən məğrur, qəhrəman ordumuzla fəxr edirəm. İnşallah, işğal altında olan bütün ərazilərimiz geri qaytarılacaq. Şəhidlərimizin qanı yerdə qalmayacaq. Bu gün Azərbaycan dövlətinin üçrəngli bayrağı Cəbrayılda, Suqovuşanda, Murovdağda, bir sıra yaşayış məntəqələrimizdə dalğalanır. İnşallah, bu bayraq Şuşada, Xankəndidə, Xocalıda, Laçında, Qubadlıda, Kəlbəcərdə, Zəngilanda və düşmən tapdağı altında olan digər yaşayış məntəqələrimizdə də dalğalanacaq! Cənab Prezidentimizin dediyi kimi, erməni əsgəri ölmək istəmirsə, rədd olsun Azərbaycan torpaqlarından! Çünki, Qarabağ Azərbaycandır!

- *Fərid müəllim, beynəlxalq turnirlərdə, yarışlarda düşmən ölkəsinin təmsilçisi ilə qarşılaşanda hansı hissləri keçirmisiniz?*

- Tək mən yox, bir çox idmançılar yarışlarda erməni idmançısı ilə qarşılaşıb. Düşünürəm ki, mənim həmin an keçirdiyim hissləri hər bir idmançı və hər bir Azərbaycan vətəndaşı keçirib. Danimarkada dünya çempionatında erməni rəqibimlə qarşılaşdım. Həmin an ancaq bir şeyi fikirləşdim. Nəyin bahasına olursa-olsun mən erməni güləşçisini udmalıyam. Finala çıxmağım və dünya çempionu olmağım barədə düşünmədim. Mənim üçün ən vacib ermənini udmağım idi. Elə oldu ki, həmin yarışda mən erməni və digər ölkələrin təmsilçilərini məğlub edərək dünya çempionu oldum.



Sonda fürsətdən istifadə edib, xalqımızı torpaqlarımızın işğaldan azad olunması və qələbələrimiz münasibəti ilə təbrik edirəm. Şəhidlərimizə bir daha Allahdan rəhmət diləyirəm. Qeyd etmək istəyirəm ki, mən də ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etməyə hazıram. Əsgər qardaşlarımın cismən yanında olmasam da, qəlbim onların yanındadır. Allah əsgərlərimizi qorusun.



# "Əziz Əsgər"

## Məktəblilər cəbhəyə məktub yazırlar

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti təxribata əl ataraq, cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini atəşə tutub. Bu haqsız müharibədə günahsız insanların, uşaq və ömrünün ixtiyar dövrünü yaşayan yaşlı insanların da həyatlarına qəsd olunub. Ancaq erməni faşistlərinin bu ağlasığmaz qəddarlığı, xalqımıza qarşı soyqırımı cəhdi insanlarımızın iradəsini qıra bilməyib. Doğma kəndlərini, rayon və şəhərlərini canlarından əziz tutan hər bir Azərbaycan vətəndaşı öz ev-eşiklərini tərk etmir, əksinə, ordumuzun cəsur, döyüşkən oğullarına mənəvi dayaq nümayiş etdirirlər.

Bütün dünya uşaqları kimi, Azərbaycan uşaqları da sülh istəyir, özü ilə ölüm kabusu daşıyan müharibəyə yox deyir. Fəqət dünyasını dəyişənlərimizin uyuduğu müqəddəs torpaqlarımızın 30 il düşmən tapdağı altında qalmasına xalqımız dözə bilməzdi. Vətən sevgisi hamını müsəlləh əsgərə çevirərək bu döyüşə səslədi. Xalqımız ordumuzun qələbə əzminə arxayındır.

3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin müəllim və şagird kollektivi də müzəffər ordumuzun apardığı əks-hücum hərbi əməliyyatlarını böyük həyəcan hissi ilə izləyir və əsgərlərimizin əldə etdiyi qələbələrlə qürur duyur. Cəbhədə düşmənlə üzbəüz döyüşdə mərdliklə vuruşan igidlərimizə ruh yüksəkliyi vermək, onlarda qələbə əzmini daha da artırmaq məqsədilə mərkəz "Əziz Əsgər" adlı cəbhəyə məktub aksiyası həyata keçirib. Mərkəzin dərnək üzvləri Vətəni qoruyan döyüşçülərimizə öz ürək sözlərini yazdıqları kiçicik məktubları və çəkdikləri rəsmləri vasitəsilə çatdırıblar. Mərkəzin fəal üzvləri yaşca hələ kiçik olsalar da, özlərini ordumuzun yanında hiss edirlər, hərə özünü bir əsgər sayır və qələbə gününü səbirsizliklə gözləyir.

Biz əminik ki, lap yaxın günlərdə rəşadətli Azərbaycan Ordusu bu döyüşlərdən qalib çıxacaq, torpaqlarımız işğaldan tam azad olunacaq, şəhidlərimizin, eləcə də düşmən gülləsinə tuş gələn günahsız uşaq və yeniyetmələrimizin qisası erməni faşistlərindən alınacaq. Çünki Azərbaycanın işi haqq işidir. Biz qalib gələcəyik! Azərbaycanın üçrəngli bayrağı doğma Xankəndimizdə, Şuşamızda dalğalanacaq!

**Sifai SƏFƏROVA**

## “World Skills” iqtisadi inkişafı dəstəkləyən bir vasitə” adlı vebinar

“World Skills” Rusiyanın təşkilatçılığı və BMT-nin İnkişaf Proqramının (BMTİP) dəstəyi ilə “World Skills” iqtisadi inkişaf üçün bir vasitə” adlı vebinar keçirilib.

Tədbirdə MDB məkanında fəaliyyət göstərən BMTİP-in təmsilçiləri, “World Skills” təşkilatına üzv dövlətlərin, eləcə də peşə təhsili sahəsində fəaliyyət göstərən qurumların nümayəndələri iştirak ediblər.

Vebinarda “World Skills” təşkilatının yaratdığı imkanların insan kapitalının inkişafında, yeni texnologiyaların təşviqində və davamlı peşə təhsili sisteminin formalaşdırılmasında istifadəsi haqqında təcrübə mübadiləsi aparılıb.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru və “World Skills International” təşkilatına Azərbaycanın rəsmi nümayəndəsi Pərviz Yusifov çıxış edərək iştirakçılara Azərbaycanın peşə təhsili sistemi və “World Skills” çərçivəsində qarşıda duran hədəflər barədə məlumat verib.

Qeyd edək ki, sözügedən təşkilat dünyada peşə bacarıqlarını təbliğ edən və peşələrin olimpiadası kimi tanınan beynəlxalq bir təşkilatdır. Azərbaycanın sözügedən təşkilatın 85-ci üzvünə çevrilməsi və cari ilin oktyabr ayında baş tutacaq Təşkilatın Ümumi Yığıncağına qatılması, beləliklə, üzvlüyünün təsdiqlənməsi gözlənilir.

## Təhsil Nazirliyinin Mətbuat Xidmətinin məlumatı

19 oktyabr tarixindən X-XI sinif şagirdləri sanitar-epidemioloji vəziyyətdən asılı olaraq müvafiq şəhər və rayonlarda əyani formada tədrisə cəlb ediləcəklər. Növbəti müddətdə COVID-19 pandemiyasının yayılması ilə bağlı məlumatlar təhlil olunaraq tədris prosesinin gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

Təhsil Nazirliyi tərəfindən ümumi təhsil müəssisələrində COVID-19-a yoluxmaların monitorinqi gündəlik olaraq aparılır. Müvafiq qurumların məlumatları əsasında bu günə qədər ölkə üzrə 55 sinif və 30 təhsil müəssisəsi distant tədrisə keçirilib.

Qeyd edək ki, “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili” barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarına uyğun olaraq, 15 oktyabr tarixindən etibarən ümumi təhsilin tam orta təhsil səviyyəsi (X—XI siniflər) üzrə şagirdlərin əyani formada tədrisə başlaması nəzərdə tutulub.




## 2020-2021-ci tədris ili üzrə 809 nəfər SABAH tələbəsi adını qazanıb

2020-2021-ci tədris ili üzrə ölkənin 10 baza ali təhsil müəssisəsinin SABAH qruplarına tələbə seçimi aparılıb. Sözügedən qruplara tələbə seçimi mərkəzləşdirilmiş qaydada üç mərhələdən (akademik göstəricilərin qiymətləndirilməsi, test imtahanı və müsahibə) ibarət olmaqla müsabiqə yolu ilə həyata keçirilir.

Müsabiqədə iştirak üçün ümumilikdə 1984 tələbə müraciət edib, onlardan 1883 nəfəri test imtahanı mərhələsində iştirak hüququ qazanıb. Dövlət İmtahan Mərkəzi tərəfindən avqust ayında pandemiya şəraitinin tələblərinə uyğun keçirilmiş imtahanda 1864 tələbə iştirak edib. 2 gün ərzində 29 ixtisas üzrə test imtahanı mərhələsini uğurla keçən 1198 tələbə üçün onlayn müsahibə təşkil edilib. Müsabiqənin nəticələrinə əsasən, 809 tələbə 29 ixtisas üzrə SABAH tələbəsi adını qazanıb.

Qeyd edək ki, 2020-2021-ci tədris ili üçün SABAH qruplarında yeni ixtisaslar açılıb, ingilis dilində tədris olunan qrupların sayı artırılıb. Belə ki, artıq Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) SABAH qruplarında tədris tamamilə, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) isə bir çox ixtisaslarda ingilis dilində aparılır.

# Müharibə dövrünün məktəbi

Sentyabrın 27-dən başlayaraq ölkəmizdə yeni ab-hava yarandı. Qarabağ münaqişəsinin həllinə yönəlmiş ədalətli zəfər savaşının başlandığı bu gün gözlənilən idi. Artıq 30 ilə yaxındır ki, təhsil ocaqlarında düşmən tərəfindən zəbt olunan tarixi torpaqlarımızın işğal günlərini, bu mübarizənin qəhrəmanlarının adlarını əzbərləyən Vətənpərvər gənc nəsil yetişmişdi. İndi mübariz ruhlu bu gənclər kitablardan oxuduqları, valideynlərindən, müəllimlərindən eşitdikləri haqq mübarizəsinin canlı şahidinə çevrildilər. Vətənpərvərlik ruhu, xarakteri genetik mirasdır. Təbii ki, bu hissi düzgün formalaşdırmaq əsasən təhsil camiəsinin üzərinə düşür.

***** **İndiki həssas məqamda müəllimlərin üzərinə böyük məsuliyyət düşür.**

**Təhsil nümayəndələri arasında da döyüşə könüllü yollananlar var.**

**11-ci sinif şagirdi Həmzə Yunusov: “Dostum şəhid oldu”.**

**“Dərs vaxtı” teledərsləri hazırda şagirdlər üçün ən effektiv və əlçatan öyrətmə mənbəyidir.**



## Vətənpərvər ruhlu şagirdlər VƏTƏN üçün ƏSGƏR olmağa hazırdırlar

**Gülnarə İLHAM**

Psixologiya üzrə fəlsəfə doktoru Ramidə Oktayqızı bildirir ki, istər valideynlər, istərsə də pedaqoqlar vətənpərvəlikdən, işğal olunmuş torpaqlarımızdan, şəhidlərimizdən, qəhrəmanlarımızdan söhbət açarkən ruh yüksəkliyi, böyük fərəh hissi, sevgi ilə danışmalıdırlar: “Xüsusən məktəblərdə, təhsil ocaqlarında vətən uğrunda igidlik göstərən şəxsiyyətlərin həyatı, döyüş tarixçəsi haqqında şagirdlərini məlumatlandırmalı, onlarla müzakirə təşkil edilməlidir. “Şəhidlər ölməz, vətən bölünməz” anlayışı erkən yaşlardan ailədə, sonra məktəbdə aşılanmalıdır. Birlik, həmrəylik, xalqın milli kimliyinin əhəmiyyəti, vacibliyi izah edilməlidir. Eyni zamanda, övladlarımız düşmənin yerləşdiyi coğrafi məkana, mədəniyyətinə, iqtisadi vəziyyətinə, xislətinə də bələd olmalıdır. Bu, onlarda hadisələrə məntiqli yanaşma, araşdırma qabiliyyətini formalaşdırır”.

### Cəhbəyə yollanan mübariz müəllimlər

İxtisasından, peşəsindən asılı olmayaraq indi hamı eyni cəbhədədir. Təhsil sahəsinin nümayəndələri, müəllimlər arasında da könüllü olaraq döyüşə yollanan insanlar var. Şabran Rayon Təhsil Şöbəsinin müdiri Emin Mövsümov, Ağstafa rayon 1 nömrəli tam orta məktəbin direktoru Elvin İmaməliyev və onlarla müəllim döyüşə yollanıb.

Həmin məktəbin tarix müəllimi Mehriban Abdullayeva “ölkəmizin indiki həssas məqamında hər bir insanın üzərində böyük məsuliyyət, öhdəlik var”, - deyir. Mehriban xanım bildirir ki, bu günün yetişəcəyini gözləyirdilər. “Həmişə həm aşağı, həm də yuxarı sinif şagirdləri ilə yaş səviyyəsinə uyğun olaraq, ölkəmizin tarixi torpaqları, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə müzakirələr təşkil edirəm. Müəllim kimi bizim borcumuzdur ki, hər bir şagirdimizə ölkəmizin tarixini dərindən öyrədək, vətənpərvərlik hissini aşılayaq, düşmənlə savaşın mahiyyətini anladaq. İndi cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaşanır. Hətta yuxarı sinifdə təhsil alan şagirdlərimiz arasında təəssüflə döyüşdə iştirak üçün yaşlarının çatmadığını deyənlər var”.

### Şagirdlərin dərsə hazırlıq motivasiyası

Ağstafa şəhər 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Həmzə Yunusov deyir ki, baxmayaraq müvəqqəti çətinlik yaşayırlar, məktəbdən uzaq qalıblar, dərslərə hazırlığa məsuliyyətlə yanaşır. “Çox böyük kədər hissi ilə deyim ki, bu döyüşdə dostum, təhsil aldığım məktəbin 2019-cu il məzunu Xaləddin Cəlilov şəhid oldu. Biz dostlarım, sinif yoldaşlarımla da söhbətimizdə danışırıq ki, indi hər birimiz öz yerimizdə, məktəbimizdə vətən üçün əsgər sayılırıq. Biz anlayırıq ki, ölkəmizə həm də savadlı, ziyalı insanlar lazımdır. Səsimizi dünyaya çatdırmaq üçün əlimizdən gəldiyi qədər informasiya müharibəsinə də qatılırıq. Savadlı gənclərimiz çox olsa, ağılla, biliklə də ölkəmizin inkişafına töhfə verə bilərik”.

### Şagirdlər “Dərs vaxtı”nda

Goranboy rayonu Qızılhacılı qəsəbəsi şəhid Dilbazi Qasımov adına 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Rəna Zeynalova bildirir ki, hətta indiyədək ermənilər tərəfindən törədilən təxribatlar, atəşkəsin pozulması zamanı aldığımız xəbərlər, eşitdiyimiz atəş səsləri nə şagirdlərimizin, müəllimlərimizin əhvalına zərrə qədər təsir edib, nə də onları qorxudub: “Şagirdlərimiz tez-tez əlaqə saxlayır, qorxmadıqlarını, məktəbə gəlmək istədiklərini deyirlər. “Dərs vaxtı” teledərsləri onlayn təhsil imkanlarının da məhdud olduğu bu məqamda həm müəllimlərə, həm də şagirdlərimizə çox kömək oldu. Onlara bu dərslərdən yararlanmağı tövsiyə edirəm”.

Ağstafa rayonu Tatlı kənd məktəbinin ibtidai sinif müəllimi Elnarə İbrahimova Təhsil Nazirliyinin təşəbbüsü ilə hazırlanan “Dərs vaxtı” teledərslərini indiki mürəkkəb şəraitdə rahat, əlçatan bilik mənbəyi hesab edir və bu dəstəyin məktəb mühiti üçün çox böyük əhəmiyyəti olduğunu vurğulayır. “Şagirdlərimizə “Mədəniyyət” və “Arb Günəş” telekanallarında yayımlanan dərsləri diqqətlə izləməyi tövsiyə edirəm”, - deyir. Elnarə xanım Ermənistanla sərhəd zonasında yerləşən bu kənddə artıq 20 ilə yaxındır ki, çalışır. “Mən bu illər ərzində rayonun mərkəzindən işə gəlirəm. Atəş səslərinə vərdiş etmiş bir ərazinin sakinləri arasında mənim həm insanlıq, həm də müəllimlik təcrübəm püxtələşib. Şagirdlərə vətən, torpaq sevgisini aşılamaqda ilk müəllimin əvəzsiz xidməti var. Həm də müəllim kimi borcumuzdur ki, xüsusən belə çətin zamanda onlara psixoloji, mənəvi dəstək olaq”.

Qeyd edək ki, sentyabrın 27-dən cəbhə bölgəsində yerləşən 444 məktəbdə hərbi əməliyyatlar səbəbindən həftəlik dərs cədvəllərinə dəyişiklik edilib. Bu günədək Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriyadan atəş nəticəsində 40-a yaxın ümumi təhsil müəssisəsinə zərər dəyib.

# Karantin rejimi dövründə təhsilverənlərə və təhsilalanlara dair TƏLƏBLƏR

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları

### Təhsilverənlərə dair tələblər:

- <65 Təhsil müəssisələrində əyani formada tədris və təlim-tərbiyə prosesinə yaşı 65-dən aşağı olan təhsilverənlər cəlb olunurlar;
- Təhsilverənlərə əməkhaqqının hesablanmasında distant (məsafədən) formada tədris edilən dərs yükü nəzərə alınır;
- Tədris və təlim-tərbiyə prosesinə cəlb olunmayan yaşı 65-dən yuxarı olan təhsilverənlərin işində yaranan fasilələr onların iş vaxtına daxil edilir və əməkhaqqı saxlanılır;
- İş prosesində tibbi və ya parça maskalardan, üz siperi və digər qoruyucu vasitələrdən istifadə edilir. İstifadə edilən fərdi qoruyucu vasitələr mütəmadi olaraq, habelə çirkləndikdə və ya nəmləndikdə dəyişdirilir və bu zaman əllərin gigiyenasına dair tələblərə riayət edilir;
- Müəllim otağında, kafedrada və digər heyətin iş və istirahət otaqlarında sosial məsafə (ən az 1,5 metr) gözlənilir;
- Təhsilverən özündə və ya birgə yaşadığı şəxslərdə COVID-19 əlamətlərini (şübhəsini) hiss edərsə, bu barədə dərhal təhsil müəssisəsinin rəhbərliyinə məlumat verir;
- İş vaxtı ərzində təhsilverəndə bədən hərarətinin 37.1°C və ya daha yüksək olduğu müəyyən edildikdə və ya hər hansı xəstəlik əlamətləri müşahidə olunduqda (yüksək hərarət, öskürək, nəfəs darlığı, dadbilmə, iybilmə hissinin itməsi, halsızlıq və s.), bu Qaydaların tələblərinə uyğun tədbirlər görülür;
- COVID-19 testinin nəticəsi pozitiv çıxan və ya test nəticəsi pozitiv çıxmış şəxslə təmasda olduğu üçün təcridolunma rejimində olan və ya test nəticəsi pozitiv çıxmış və sağalmış, lakin sonuncu test nəticəsinin neqativ olmasından hələ 14 gün keçməyən, habelə özündə və ya birlikdə yaşadığı şəxslərdə şübhəli əlamətlərin olması səbəbindən götürülmüş test nümunələrinin cavabları aşkarlananadək, həmin şəxslərin işə başlamasına icazə verilmir;
- Bu Qaydalarla təhsilverənlərə münasibətdə müəyyən edilmiş tələblər təhsil müəssisəsinin tədris etməyən inzibati heyətinə də aiddir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları

### Təhsilalanlara dair tələblər:

- Təhsilalanların məktəbəqədər və ümumi təhsil müəssisələrində, uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində maskadan istifadəsi onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin seçiminə verilir, peşə, orta ixtisas və ali təhsil müəssisələrində isə maskadan istifadə məcburidir;
- Təhsilalan müəssisəyə daxil olarkən və müəssisə daxilində sosial məsafə gözlənilir, şəxsi gigiyena qaydalarına (o cümlədən mütəmadi əlləri yumaq) əməl edilir;
- Dərs (məşğələ) müddətində təhsilalan, onun üçün müəyyənləşdirilmiş yerdə oturur;
- Təhsilalan digər təhsilalanlara aid əşyalara toxunmur;
- Təhsilalan özündə və ya birgə yaşadığı şəxslərdə COVID-19 əlamətlərini (şübhəsini) hiss edərsə, bu barədə özü və ya valideynləri və ya digər qanuni nümayəndələri dərhal təhsil müəssisəsinin rəhbərliyinə məlumat verir;
- Dərs (məşğələ) müddətində təhsilalanın bədən hərarətinin 37.1°C və ya daha yüksək olduğu müəyyən edildikdə və ya hər hansı xəstəlik əlamətləri müşahidə olunduqda (yüksək hərarət, öskürək, nəfəs darlığı, dadbilmə, iybilmə hissinin itməsi, halsızlıq və s.) uyğun tədbirlər görülür;
- COVID-19 testinin nəticəsi pozitiv çıxan və ya test nəticəsi pozitiv çıxmış şəxslə təmasda olduğu üçün təcrid olunma rejimində olan və ya test nəticəsi pozitiv çıxmış və sağalmış, lakin sonuncu test nəticəsinin neqativ olmasından hələ 14 gün keçməyən, habelə özündə və ya birlikdə yaşadığı şəxslərdə şübhəli əlamətlərin olması səbəbindən götürülmüş nümunələrinin cavabları aşkarlanadək, təhsilalanların təhsil müəssisəsinə gəlməsinə icazə verilmir.

# Məsafə onlara mane olmur



Ruhiyyə DAŞSALAHLI

“Xəstəlik var ki?”, - deyib dünyada tüğyan edən pandemiya səbəbi COVID-19-a şübhə ilə baxan bəzi böyüklərin əksinə olaraq, Bakı şəhəri 286 nömrəli tam orta məktəbin şagirdlərinin məktəb çantasından kitab, rəngli qələm və dəftərlə yanaşı, dezinfeksiyaedici məhlullar da çıxır. Hər kəsin nəm salfeti var. Bunu “Azərbaycan müəllimi” qəzetinə məktəbin IX sinif şagirdi Emil Nağızadə deyir: “Sadəcə əlimizi təmiz saxlamırıq, həm də bir-birimizlə aramızdakı məsafəni də qoruyuruq. Məcburən bir-birimizdən uzaq durmalıyıq. Baxmayaraq ki, indiyə qədər məktəbdə müəllimlərimiz bizə yoldaşlarımızla birgə işləməyi, əlimizdə olanları onlarla paylaşmağı öyrədib. Amma düşünürük ki, məsafələr müvəqqətidir və biz virusa qalib gələndən sonra həmin məsafə aradan qalxacaq. Bilirsiniz, məncə, məsafələr bizim dostlarımızı, yoldaşlarımızı sevməyimizə mane ola bilməz”.

Emilin həmyaşıdı, IX sinif şagirdi Sevil Əliyeva da COVID-19 adlı virus barədə məlumatlıdır: “Bilirik ki, hava-damcı yoluyla yayılır. Sürətlə yayılan bu virusdan özümüzü qorumağın ən yaxşı yolu isə kütləvi yerlərə getməmək, insanlarla aramıza məsafə qoymaq, əlimizin təmizliyinə diqqət etməkdir”.

Məktəbdə daim maskada olan məktəbli bunu belə izah edir: “Baxmayaraq ki, maskadan istifadə bizim üçün məcburi deyil, yenə də taxırıq. Çünki bizə elə ağırlığı olmayan maskalar koronavirusdan müdafiəmizi daha da gücləndirər”.

## Bir qapıdan böyüklər, digər qapıdan azyaşlı şagirdlər

286 nömrəli tam orta məktəbdə 3000-ə yaxın şagird növbəli şəkildə təhsil alır. Məktəb 300-ə qədər uşağın birinci sinifdə, 200 nəfərə qədər azyaşlının məktəbəqədər hazırlıq qrupunda təhsilini təşkil edib. Məktəb direktoru Samir Mehdi-zadənin sözlərinə görə, şagirdlərinin təhlükəsizliyi, sağlamlığı və keyfiyyətli təhsil alması üçün əllərindən gələni ediblər: “Məktəbin 2 girişi var. Binanın quruluşu birinin giriş, digərinin çıxış kimi istifadə edilməsinə imkan vermir. Ancaq “A” və “B” qapısı kimi fərqləndirdiyimiz bu girişləri yuxarı və aşağı sinif şagirdlərimiz üçün ayırmışıq. İbtidai sinifdə və məktəbəhazırlıqda təhsil alan şagirdlərimiz “B” qapısından istifadə edirlər. Elə ki, şagirdlər məktəb binasına yaxınlaşdı, məktəblinin dostları da onlara yaxınlaşır. Hər kəsin bədən hərarəti ölçülür, əlləri spirtlənir”.

## Fiziki məsafəni artırıb, mənəvi məsafəni qısaldırlar

Ümumiyyətlə, qapıdan içəri girən hər kəs eyni prosedurla qarşılaşır: əllər spirtlənir, temperatur ölçülür, ağız və burnu bağlayan maska tələb edilir. Məktəblilər üçün məcburi olmayan maska və üz sipəri müəllimlər üçün mütləqdir. Buna nəzarət edə bilmək üçün isə məktəblinin dostlarının qüvvəsindən istifadə edilir. “Məktəblinin dostu” layihəsi sözügedən məktəbdə 2 əməkdaş və iki könüllü ilə təmsil olunur. Məktəblinin dostu Əsmər Mustafazadənin sözlərinə görə, burada 4 nəfər dəyişən qrafiklə fəaliyyətdədir: “Hər gün 7.30-dan məktəbdəyik. Biz burada bədən hərarətinin ölçülməsində, uşaqların bir-biri ilə aralarında məsafə saxlamasına nəzarət edilməsində məktəb kollektivinə kömək edirik. Sadəcə şagirdlərin də deyil, uşağının arxasınca gələn və məktəb həyətinə yığışan valideynlərin də öz aralarında məsafə saxlamalarına nəzarət etməyə çalışırıq. Mütəmadi olaraq onlara ölkədə davam edən pandemiyanı xatırladır, aralarındakı məsafəni qorumağa çağırırıq. Dərs vaxtı uşaqların təhlükəsizliyinin təmin edilməsinə mütəmadi nəzarət edir, onlarla yaxın münasibətlər qurur, dostlaşmağa çalışırıq ki, hər hansı problemləri olarsa, bizimlə bölüşsünlər”.

## Müəllimlər şagirdlərlə birgə istənilən formatda dərsi qura və yüksək nəticə əldə edə bilirlər



**15 oktyabr üzrə ümumi təhsil müəssisələrində COVID-19-la bağlı məlumat***

Azərbaycan Respublikası Təhsil Nazirliyi

| | |
|---|---|
| Hərarəti 37 dərəcədən yuxarı olmuş şagirdlərin sayı | 14 |
| Hərarəti 37 dərəcədən yuxarı olmuş işçi heyətinin sayı | 2 |
| Virusa yoluxmuş şagirdlərin sayı | 33 |
| Virusa yoluxmuş işçi heyətinin sayı | 12 |
| Distant təhsilə keçirilmiş siniflərin sayı | 8 |
| Əyani təhsilə qaytarılmış siniflərin sayı | 3 |
| Distant təhsilə keçirilmiş məktəblərin sayı | 7 |
| Cəmi distant təhsilə keçirilmiş siniflərin sayı | 60 |
| Cəmi distant təhsilə keçirilmiş məktəblərin sayı | 37 |

*Qeyd: məlumat bir gün əvvəlki tarixə aiddir.

## Pandemiya məktəbində dərs

Giriş-çıxış eyni olsa da, şagirdlərin tam təhlükəsiz şəraitdə sinfə daxil olması və keyfiyyətli təhsil alması üçün burada fəaliyyətdə olan “Məktəblinin dostu” layihəsinin əməkdaşları ilə birgə məktəbin bütün pedaqoji kollektivi əlindən gələni edir. 45 dəqiqə sürən hər dərsdən sonra şagirdlər 10 dəqiqə tənəffüs edir. Ancaq tənəffüsdə otaqlarını tərk etmirlər. İki növbəli şəkildə təşkil edilən dərslər bitən kimi siniflər havalandırılır, təmizlənir və dezinfeksiya edilir. Bu prosedura həm birinci növbənin dərsi bitəndə, həm də gün bitəndə həyata keçirilir. İkinci növbənin dərsləri 1 saatlıq fasilədən sonra başlayır.

Məktəbin coğrafiya müəllimi Şəhla Hümmətovanın dərsidir. Dərs zamanı pandemiyanın bütün qayda-qanunlarına riayət olunur. Dərsdə uşaqların arasındakı məsafə qorunur: “Mən bir müəllim olaraq bu məsafəni saxlayıram. Xəritəyə şagird yaxınlaşarkən mən ordan uzaqlaşıram. Şagirdlərin bir-biri ilə olduğu qədər özümün də onlarla məsafəmizi qoruyuram. Pandemiya başlayanda həyatımızın tamamilə dəyişəcəyi deyilirdi. Həqiqətən də hər şey dəyişdi. Uşaqlar elə alışıblar ki, nəm salfetlər, spirt onların dərs ləvazimatlarından birinə çevrilib. Mən həyat bilgisi fənnindən də dərs keçirəm. Gigiyena qaydalarını istər bu fənn üzrə tədris proqramı çərçivəsində, istərsə də COVID-19-dan özlərini qorunmaları üçün maarifləndirmək məqsədi ilə onlara xatırladıram. Onlarla mütəmadi söhbətlər aparır, yeni qayda və tələbləri təlqin edirəm. Nəticəsi də var. Şagirdlərimiz şəxsi gigiyenasına çox diqqət edirlər”.

## “Nə aramızdakı məsafə bizə mane olur, nə də üzümüzdəki maska”

30 ilin müəllimi Naibə Ələkbərova hesab edir ki, asan olmasa da, artıq pandemiyanın şərtləri ilə barışıb, tələblərini gündəlik həyat tərzinə çevirə biliblər: “Ən böyük çətinliyimiz onlayn dərslərə keçidlə bağlı oldu. Bilirsiniz ki, ənənəvi dərs modelini vazkeçilməz edən müəllimin şagirdi müşahidə edə bilməsi, keçilən mövzunu mənimsəyib-mənimsəmədiyini gözlərindən, davranışından anlamasıdır. Teledərs və onlayn dərslər zamanı göz təmasımız zəiflədiyindən onları anlamaqda, dərsi mənimsədiklərini müəyyənləşdirməkdə bir az çətinlik çəkdik. Ancaq bu qısa müddət davam etdi və artıq şagirdlərimiz də, biz də istənilən formatda dərs qura və yaxşı nəticə əldə edə bilirik. Artıq bütün çətinliklərimiz arxada qalıb. Nə aramızdakı məsafə bizə mane olur, nə də ağız-burnumuzdakı maska”.

## Dəftər, kitab, qələm, qələm qabı, su və...

Hələ I sinif şagirdi Harun Novruzlunun məktəb çantasını boşaldırıq. Nə çıxsa yaxşıdır balaca məktəblinin çantasından? Dəftər, kitab, qələm, su və əlbəttə ki, dezinfeksiyaedici məhlul. Dediyinə görə, tez-tez əllərini yuyur, ya da spirtləyir, sinif yoldaşlarına çox yaxınlaşmır: “Çox yaxına gedəndə virus olur”.

Nərgiz Həmidli də hələ I sinifdədir. Parta arxasında keçirəcəyi uzun illər var. Hər gün məktəbə həvəslə gəlir. Dostlarını da tanıyır, düşmənini də. Düşməni qorxunc virusdur. Ondan necə qorunacağını isə müəllimi ona başa salıb: “Əlimizi su ilə, sabunla yumalıyıq, su olmayanda spirtləməliyik”.

İlkin Quliyev ötən il məktəbəhazırlıq qrupunda təhsil alıb. Artıq birincidir. Cəmi ikinci ildir ki, məktəbə gəlir, di gəl ötən il ona deyilənlərin əksini eşidir bu il. Axı, keçən il müəllimi ona yoldaşı ilə mehriban olmağı, bir yerdə oturmağı, birgə çalışmağı öyrədirdi. Bəs, nə dəyişdi ki, indi də fərqli qaydalar öyrədirlər ona. Məsələn, bu il ondan yoldaşları ilə məsafə saxlamağı tələb edirlər. Amma o, bu vəziyyətdən çaş-baş qalmayıb. “Keçən il partada iki-iki otururduq. Amma bu il tək otururuq. Çünki koronadır” - deyir. Koronanı yaxşı tanıyır, özünü bu təhlükəli virusdan necə qoruyacağını bilir: “Üzümüzə maska taxmalıyıq, əllərimizi tez-tez yumalıyıq”.

## Məktəbdə öyrənib, evdə tətbiq edirlər

İlkinin anası Təhminə Quliyeva deyir ki, uşaqlar evdə çox çətinlik çəkib. Məktəb üçün, sözün əsl mənasında, darıxıblar: “Çalışırıq ki, məktəbdə ona aşılanan hər vərdişə evdə də davam etsin. Uşağın fikri qarışmasın deyə əlimizdən gələni edirik. Ona görə də evdə, demək olar ki, uşaqların dediyi olur. Biz də onların məktəbdə öyrənib, evdə bizə tətbiq etdiyi qaydalara əməl etməyə çalışırıq”.

Nigar Əsədova isə Əlinin valideynidir. O da söz pandemiyadan düşən kimi onlayn dərsləri xatırlatdı: “Oğlum Əli bu məktəbin şagirdidir. Valideyn olaraq üzbəüz dərsə üstünlük verirəm. Dərslərin başlaması çox yaxşı oldu. Uşaq da çətinlik çəkirdi, biz də. Bütün qaydalara əməl edirik, təki pandemiya uşaqlarımızın təhsilinə mane olmasın”.

## 286 nömrəli tam orta məktəbin “Təcili yardım”ı

Hər məktəbdə həkim, həkim olmasa da tibb bacısı var. Xüsusən bu günlərdə onlara çox böyük ehtiyac var, axı. 286 nömrəli tam orta məktəbdə isə pandemiya oldu-olmadı, şagirdlərin sağlamlığının keşiyində kiçik bir tibbi heyət dayanıb. Həkim Xalidə Qasımova, tibb bacıları Qələmnaz Məcidova, Mahirə Kərimova və Könül Səlimovadan ibarət tibbi heyət növbəli şəkildə məktəbin şagird və müəllimlərinin baş ağrısından tutmuş düşməyən qızdırmasına qədər hər dərdinə çarə olmağa çalışır. Otaq bir poliklinika otağından heç nə ilə fərqlənmir. Qələmnaz Məcidova 3 tibb bacısından biridir: “Bu günlərdə əsas işimiz uşaqların bədən hərarətini nəzarətdə saxlamaqdan ibarət olur. Hər gün eyni məsuliyyətlə işimizi yerinə yetiririk. Növbəlilik əsasında keçirilən dərslərdə xüsusən bədən hərarətinə diqqət edirik. Hərarəti yüksək olan uşaqları COVID-19 şübhəsi ilə təcrid edirik”.

Təcrid üçün isə məktəbdə ayrıca otaq var. Bədən hərarəti yüksək olan şagird həmin otaqda qalır. Məktəbin direktoru Samir Mehdi-zadənin sözlərinə görə, pandemiya şəraitində keyfiyyətli və təhlükəsiz tədrisin təşkili üçün qəbul edilmiş bütün qaydalara məsuliyyətlə əməl edirlər: “İndiyədək 3 şagirdimizdə COVID-19 aşkar olunub. Yoluxma həmin şagirdlərin ailəsindən baş vermişdi. Məktəbdə aşkarlandığı zaman sinif dezinfeksiya olundu və qapısı bağlandı. Həmin otaqlara başqa sinifdən olan şagirdlər buraxılmadı. Üçüncü yoluxma ötən həftə aşkarlandı. Bazar gün dezinfeksiya işləri həyata keçirildi. Virus aşkarlanan sinif müəllimləri ilə birlikdə karantinə göndərildi. Onların dərs keçdiyi otaq hazırda da bağlıdır”.

Beləliklə, əvvəlcə şagirdi sinifdən təcrid edir, şübhə aradan qalxana qədər əks qərar çıxartmırlar. Şübhə təsdiqləndiyi təqdirdə, sadəcə şagird sinifdən deyil, bütün sinif orada dərs deyən müəllimlərlə birgə məktəbdən təcrid olunaraq karantinə alınır. Onlar yalnız 14 gün sonra, özü də arayış təqdim etdikdən sonra məktəbdə fəaliyyətlərini davam etdirə bilirlər.

## Məktəb dəhlizlərində səliqə-sahman

Qapıda məktəbin təmizliyinə görə əsas məsul şəxslə qarşılaşırıq. Əlində təmizlik vasitələri olan xadimə Xamisə Əhmədovadan pandemiya dövrünün məktəbində zibilin tərkibinin dəyişib-dəyişmədiyi ilə maraqlanırıq. Dediyinə görə, şagirdləri məktəbi zibilləməməyi pandemiyadan əvvəl öyrənib. Odur ki, küçədə bəzi böyüklərin hara gəldi atdığı istifadə olunmuş maskalara məktəb dəhlizlərində və həyətində rast gəlməzsiniz.



# Məktəblər yenidən açıldıqdan sonra...

**Oruc MUSTAFAYEV**

Dünyanı bürümüş COVID-19 böhranı ayrı-ayrı ölkələrdə təhsil sistemləri üçün bir sıra problemlər yaratmaqdadır. Sentyabrda fərqli ölkələrdə məktəblərin yenidən açılması təhsil prosesinin iştirakçıları üçün heç də rəvan keçmədi. Özünün ikinci dalğasını gətirən gözəgörünməz pandemiya təhsil sistemlərini tədrisin müxtəlif formatlarını tətbiq etməyə, bu sahədə daha tədbirli olmağa, çevik addımlar atmağa səfərbər etdi. Dünyanın ayrı-ayrı ölkələrində yenidən açılan təhsil müəssisələrində tədrisin davamlılığına nail olmaq mümkün oldumu? Məktəb sistemləri ikinci dalğaya necə cavab verir? Bu yazıda fərqli ölkələrdə məktəblərin yenidən açılmasından sonrakı vəziyyətə diqqət yetirməyə çalışdıq.

> "COVID-19 gələcəyi sürətlə bu günə daşıyır"

**RUSİYA**

Yeni tədris ilinə sentyabrın 1-də ənənəvi formatda başlayan Rusiya Federasiyasında koronavirusa yoluxma hallarının artması nəticəsində 100-dən çox məktəb distant təhsilə keçib. Maarif naziri Sergey Kravtsovun sözlərinə görə, "bu gün dərsləri distant texnologiyalarla təmin edən 108 məktəb var". Nazir son günlərdə müəyyən bölgələrdə xəstəliklərin dinamikası ilə bağlı hesabatların tez-tez artdığını qeyd edib. O, təhsil sistemindəki vəziyyətin hərtərəfli şəkildə izlənildiyini, bunun hazırda bütün yerli təhsil orqanlarının əsas vəzifəsi olduğunu deyib. "Bu gün deyə bilərəm ki, təhsil sistemi bütün ölkədə tam işlək vəziyyətdədir. Bu prosesi heç bir şey təhdid etmir".

S.Kravtsovun sözlərinə görə, regionlardakı təhsil müəssisələrində koronavirusa qarşı profilaktik tədbirlərə riayət olunmasına nəzarət gücləndirilməlidir. "Təhsilalanları, müəllimləri, təhsil sisteminin bütün iştirakçılarını bir daha səhiyyə orqanlarının müəyyən etdiyi bütün lazımi tədbirlərə riayət etməyə çağırıram", - deyə nazir müəllim və şagirdlərə müraciət edib. Nazir əlavə edib ki, narahatlıqları atmaq, gigiyena qaydalarına riayət etmək, məktəblər daxilində lazımi tədbirlərə diqqət yetirmək lazımdır.

Bu arada rusiyalı müəllimlər postpandemiya dövründə distant təlimin nəticələrini qiymətləndiriblər. Aparılmış rəy sorğularına əsasən, müəllimlərin əksəriyyəti distant təhsilə keçidi yeni bacarıq və səlahiyyətlər əldə etmək məqsədilə özünütəhsil ilə məşğul olmağa səbəb kimi qiymətləndiriblər. Respondentlərin 77 faizi distant təhsilə keçidin nəticəsi kimi əlavə ixtisas və qeyri-ixtisas təhsili aldığını qeyd edib. Eyni zamanda, müəllimlərin 47 faizi mövcud reallıqlarda həqiqətən də yeni bilik və bacarıqların nın olmamasını hiss etdiyini bildirib.

Müəllimlərin daha 57 faizi etiraf edib ki, bu il bir il əvvəlkindən daha çox təhsil almalı olub. Respondentlərin yarıdan çoxu (53 faiz) üçün onların əsas peşə fəaliyyəti ilə birbaşa bağlı olmayan istiqamətləri mənimsəmək vacib idi. Belə ki, müəllimlərin 80 faizi rəqəmsal savadlılığını artırıb. 70 faizi isə video konfrans vasitələrindən istifadədə biliklərinin çatışmazlığı narahat edir.

Bununla yanaşı, distant tədris dövründə yeni rəqəmsal alətləri mənimsəyən müəllimlərin 83 faizi onları mütəmadi olaraq, o cümlədən gündəlik dərslərdə tətbiq etməyə davam etdiyini qeyd edib.

**UKRAYNA**

Ukraynada məktəblərin yenidən açılmasından sonra tədris prosesinin iştirakçıları arasında virusa yoluxma halları hər gün artıb, şagirdlər, tələbələr və müəllimlər arasında kütləvi hallar müşahidə olunub. Yerli ekspertlər qeyd edirlər ki, artıq gözləmək olmaz, məktəblər və universitetlər onlayn təhsilə göndərilməlidir.

"24 kanal" xəbər verir ki, Ukraynanın hər yerində məktəblər getdikcə bağlanır, paytaxtda isə Taras Şevçenko adına Universitet distant təhsilə keçirilib. Parlamentin milli sağlamlıq, tibbi yardım və tibbi sığorta komitəsinin sədri Mixail Radutski bildirib ki, bütün məktəblər və universitetlər onlayn təhsilə göndərilməlidir. Tezliklə hökumətin 22 iyul 2020-ci il tarixli 641 nömrəli "COVID-19 kəskin respirator xəstəliyinin geniş yayıldığı ərazilərdə karantin rejiminin müəyyən edilməsi və gücləndirilmiş epidemiya əleyhinə tədbirlərin tətbiqi haqqında" qərarını dəyişdirmək lazım olacaq, çünki Dünya Səhiyyə Təşkilatı artıq karantinin tətbiqi və zonalaşdırılması meyarlarını dəyişib. Ekspertlər qeyd edirlər ki, xəstəliyin sürətlə yayılması tempinin qarşısını almaq üçün bütün şagirdləri onlayn təhsilə keçirmək lazımdır. Hesab olunur ki, xəstəliyin simptomsuz daşıyıcısı olan şagirdlər və tələbələr üçün uzaqdan təlim tətbiq etmək lazımdır.





**GÜRCÜSTAN**

Gürcüstanda tədris ilinin başlanması ilə ölkədə şagirdlər və müəllimlər arasında koronavirus infeksiyasına tutulma halları daha da artıb. Bir çox təhsil müəssisələri yenidən distant tədris üsuluna qayıtmağa məcbur olub. Demək olar ki, yoluxma halı müşahidə olunan hər bir məktəb tamamilə, Gürcüstanın paytaxtında 32 nömrəli şəhər məktəbinin 30 müəllimi və 900 şagirdi isə yoluxma ilə əlaqədar yenidən distant iş rejiminə keçib.

Xatırladaq ki, Gürcüstanın böyük şəhərlərində oktyabrın 1-dən etibarən 1-6-ci sinif şagirdləri uzun fasilədən sonra məktəblərinə qayıdıblar. VII-XII sinif şagirdləri isə məsafədən tədrisi davam etdirirlər.

Məktəblərə gedən I-VI sinif şagirdlərinin valideynlərinə övladlarının məsafədən tədrisi davam etdirmələri və gündəlik dərslərə getməmələrini istədikləri təqdirdə Təhsil Nazirliyinin saytında yerləşdirilmiş müraciəti doldurmaları və ya müvafiq təhsil müəssisəsinə sorğu göndərmələri tövsiyə olunub.

**BÖYÜK BRİTANİYA**

Böyük Britaniyanın Təhsil Nazirliyinin son məlumatlarına əsasən, ölkədə şagirdlər və müəllim heyəti, işçilər arasında yayılan infeksiya səbəbindən qismən bağlanmaq məcburiyyətində qalan dövlət məktəblərinin sayı ötən həftələr ərzində yenidən artıb. Koronavirusla bağlı kifayət qədər şagird kontingenti olmayan məktəblərin sayı 6%-dən 7%-ə qədər artıb və ya ümumilikdə 1500-dən çox məktəbi əhatə edib. Baş nazir Boris Conson mühafizəkarlar partiyasının konfransındakı çıxışında hazırda şagirdlərin koronavirus səbəbindən itirdiklərinin kompensasiya olunmasına kömək etmək üçün planlaşdırılan fərdi təlimdən istifadəni genişləndirməyə çağırıb: "Biz hamımız çətinlikləri görürük, amma hesab edirəm ki, bu cür intensiv təlim transformasiya oluna və valideynlər üçün böyük əhəmiyyət kəsb edə bilər".

COVID-19 pandemiyasına yoluxma hallarının artması ilə əlaqədar Böyük Britaniyanın ali təhsil müəssisələri də əyani təhsili dayandırmağa məcbur olub. "The Guardian" qəzetinin yazdığına əsasən, Böyük Britaniyanın 80-dən çox universitetində tələbə və əməkdaşlar arasında ən azı 5000 təsdiqlənmiş COVID -19 xəstəliyinə yoluxma halı qeydə alınıb. İlk növbədə 600 tələbəsində virusa yoluxma halı təsdiqlənmiş Şeffild Universiteti klinik kurslardan başqa, 19 oktyabra qədər gündəlik əyani təhsili dayandırmağa qərar verib. Mançester Universitetində 1000-dən çox tələbə əyani təhsili dayandırıb.

Digər universitetlər də bildiriblər ki, tələbələr yeni tədris ilinin əvvəlində kampuslara köçdükdən iki həftə sonra onlarda artan yoluxma halları müşahidə olunub. Mançester Metropolitan Universiteti (MMU) də bir neçə ixtisaslaşdırılmış kurs istisna olmaqla dərs və seminarların dayandırılacağını və ən azı oktyabrın sonuna qədər onlayn təhsilə keçəcəklərini bildirib. Oktyabrın əvvəllərinə bu ali məktəbdə 500 virusa yoluxma halı təsdiqlənib. Universitet rəhbərliyi 1700-dən artıq tələbəyə özünütəcrid rejiminə keçmək barədə göstəriş verib. 91 tələbə 50 funt-sterlinq cərimə olunub və sosial məsafə qaydalarını pozduqlarına və ya tələbə yataqxanalarında kütləvi tədbirlərə qatılan 39 tələbəyə isə xəbərdarlıq olunub.

Beləliklə də, məktəblər yenidən açıldıqdan sonra pandemiyanın ikinci dalğası səbəbindən təhsil müəssisələrinin distant tədrisə keçməsinin özündə bir sıra müsbət transformasiyaları da ehtiva etdiyini görə bilirik. Ümumdünya İqtisadi Forumun açıqlamasına əsasən, pandemiya göstərdi ki, virtual təhsil təlim və peşə hazırlığı prosesini sürətləndirmək üçün uğurla istifadə edilə bilər. COVID-19 dünyamızı daha da virtual etdi. Bunun niyə yaxşı olduğunu göstərən üç səbəb var:

- *Pandemiya rəqəmsal texnologiyaların tətbiqini təsəvvür etdiyimizdən daha tez sürətləndirdi.*
- *Şirkətlər dağınıq halda olan qlobal istedadları birləşdirmək üçün texnologiyanın gücünü dərk edirlər.*
- *Virtual təhsil getdikcə daha da inkişaf edir və bütün dünyada fayda verə bilər.*

Bu yaxınlarda Cognizant Gələcək İş Mərkəzinin həmtəsisçisi futuroloq Ben Prinqin dediyi kimi: "COVID-19 gələcəyi sürətlə bu günə daşıyır".

Təhsildə STEAM



**Məlumdur ki, qloballaşma şəraitində müasir bacarıq və səriştələrə malik təhsilalanların yetişdirilməsi təhsil sistemləri qarşısında duran mühüm vəzifələrdən biridir. Son illər Təhsil Nazirliyinin təşəbbüsü ilə ümumtəhsil sistemində həyata keçirilən mühüm layihələrdən biri yeni yaradıcı düşüncənin, yanaşma tərzinin, innovativ yeniliklərin təhsilimizə gətirilməsidir. Bu mənada təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihələri xüsusi əhəmiyyət daşıyır.**

# STEAM dərsləri

## Məqsəd innovasiyaların kənd məktəbində tətbiqinə nail olmaqdır

**Mələk HACIYEVA,**
*Bərdə rayonu Güloğlular kənd ümumi orta məktəbin informatika müəllimi, layihə rəhbəri*

Cari tədris ilində təhsildə inkişaf və innovasiyalar üzrə IV Qrant müsabiqəsinin qalibi olmuş “Kənd məktəblərində STEAM dərsləri” layihəsini yazmağımda əsas məqsədim də müasir dövrdə bir çox ölkələrdə STEAM dərslərinin geniş tətbiq olunması ilə bağlıdır. Bu dərslərin digərlərindən fərqli, müsbət üstünlükləri olduğunu bilirik. STEAM- Elm, texnologiya, mühəndislik, riyaziyyat və incəsənt elmlərinin inteqrasiyası deməkdir. STEAM dərsləri praktik, yeni metodologiyalar əsasında öyrədilir. Təhsilalanlarda yaradıcı, yeni texnologiyalardan istifadə etmək bacarıqlarını formalaşdırmaq məqsədilə STEAM dərslərinin tədrisi vacib və zəruridir. Dərslər nəticəsində şagirdlərdə riskləri nəzərə almaq, praktik öyrənmə ilə məşğul olmaq, problemin həllində israrlı olmaq, komandada işləmək, yaradıcı olmaq, fərqli fikirləri formalaşdırmaq, çevik fikirlər irəli sürmək, yaranacaq yeni ixtisaslar üzrə işləmək bacarıqları formalaşır. Ölkəmizin texnologiya ixtiraçısına, istehlakçısına çevrilməsi, şagirdlərimizin bu istiqamətdə fəallığını stimullaşdırmaq məqsədilə məktəblərimizdə STEAM yanaşma tədris edilməlidir. Öyrəniləcək metodologiyalardan praktik işlər və onların nəticəsi, analiz, layihə əsaslı öyrənmə (PBL), araşdırmaya əsaslanan öyrənmə, mühəndislik dizaynı, proqramlaşdırma, “Escape room”, mobil öyrənmə, analogiyalarla öyrənmə, fənlərarası inteqerasiya, öyrənmə və s. sadalamaq olar. Pilot layihələrin rayon və bölgələrdə tətbiqini nəzərə alaraq Bərdə rayonunun kənd məktəblərində bu şəraiti yaratmağı vacib bildim. STEAM dərslərinin nəticəsi şagirdləri həyata hazırlayır və real həyatdakı problemləri həll etməyi öyrədəcək. Bərdə rayonu üzrə 5 kənd tam orta məktəbi və hər məktəbdən müsahibə yolu ilə 3 müəllim seçilib. Müəllimlərə Problem Əsaslı Öyrənmə, Layihə əsaslı öyrənmə, Tinkering, Mobil öyrənmə, Mikrobit dərsləri və s. tədris edilir. Ümumilikdə 15 müəllim 1 ay təlimdən keçib sonra öyrəndiyini öz məktəblərində tətbiq edəcək. Layihəni həyata keçirən zaman, öncə məktəb direktorlarına STEAM təlimi keçirildi ki, müəllimlər öz məktəblərinə tətbiq edəndə məlumatlı olsunlar.





Layihənin həyata keçirilməsi gedişində şagirdlər aşağıdakı nəticələrə gələcək: tənqidi düşüncə probleminin həlli; yaradıcılıq, innovasiya; əməkdaşlıq, komanda işi; ünsiyyət; informasiya, media savadlılığı; texnologiya savadlılığı; rəhbərlik, çeviklik, yenilikçi.

STEAM-ın ilk dəfə kənd məktəblərində tətbiqi bir ilkdir. Bu layihəni yazmaqda əsas məqsədlərimdən biri də təhsil sahəsində innovasiyaların kənd məktəbində tətbiqinə nail olmaqdır. Sentyabrın 15-dən icrasına başlanılan layihə çərçivəsində keçilən dərslər dekabrın 15-ə kimi davam edəcək.

---

Son illər bütün dünyada STEAM təlim texnologiyaları geniş yayılmaqdadır. Yeni nəslin dövrün tələblərinə uyğun formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edən STEAM təhsil bütün həyati çağırışlara balanslı və rasional yanaşmanın formalaşdırılmasına kömək edir. İstənilən ibtidai məktəbin birinci və ikinci sinif şagirdlərinə diqqətlə baxın. Heç nə görmürsünüz? Çox güman ki, yox. Çox adi uşaqlardır. Ancaq bir vacib məqam var: son bir neçə ildə məktəblər yeni yanaşmaya əsaslanaraq bu uşaqlara öyrənməyi öyrədir.

# Gələcəyi düşünərkən...

## STEAM təlim uşaqlarımıza nə verir?

**Oruc MUSTAFAYEV**

Əsas diqqət təcrübəyə - texnoloji avadanlıqların köməyi və artıq dərsdə mərkəzi fiqur olmayan və şagirdlər üçün mentor rolunda çıxış edən pedaqoqun dəstəyi ilə ixtisaslaşdırılmış laboratoriyalarda konkret problemlərin həlli və təbii hadisələrin öyrənilməsinə yönəldilir. Bu yanaşma STEAM (Science, Technology, Engineering, Arts and Mathematics) adı ilə tanınır və bu gün məktəblərdə təlim-tədris məsələlərinə biganə qalmayan insanlar tərəfindən fəal müzakirə olunur.

Məhz bu yanaşma uşaqları hələ mövcud olmayan peşələrə hazırlayır. Dünyada STEAM təliminin maliyyələşdirilməsinə də diqqət daim artır. Təsadüfi deyildir ki, Amazon və Google kimi dünyanın ən yaxşı şirkətləri bu istiqamətin maddi-texnoloji və metodoloji inkişafına milyonlarla dollar xərcləyirlər. Həm biznes, həm də hökumətlərin STEAM təliminin inkişafında maraqlı olmaları təsadüfi deyil.

Bu yanaşma yalnız təbiət elmləri fənlərini keyfiyyətcə mənimsəməyə və texnologiya sahəsində bacarıq və bilik əldə etməyə imkan vermir. Uşaqları hələ olmayan peşələrə, gələcəyin çağırışlarına və tələblərinə hazırlayır. Şagirdlərin kəşflər etməsinə imkan verən, onlarda tənqidi düşünmə bacarıqlarını inkişaf etdirən, ətraf mühitə həssaslıqlarını artıran bir sistem olan STEAM yanaşma vasitəsilə şagirdlər robotika, elmi təcrübələr, araşdırmalar və s. apararaq özlərinin maraq, kəşfetmə, tənqidi düşünmə bacarıqlarını inkişaf etdirə bilirlər.

STEAM təlim mərkəzlərində şagirdlərimizin yaradıcılıq, innovasiya, problem həll etmə kimi 21-ci əsr bacarıqlarını inkişaf etdirmələrinə imkan verən robotika dərnəkləri şagirdlərə ibtidai siniflərdən başlayaraq öz yaş qruplarına uyğun Lego şəbəkələri ilə işləyərək öz robotlarını hazırlamağa və proqramlaşdırma imkanı əldə etməyə kömək edir. Layihə əsaslı işlər gedişində uşaqlar innovasiya, yaradıcılıq, komanda işi və vaxtın idarə olunması kimi bacarıqları daha tez mənimsəyirlər. Bundan əlavə, aşağı siniflərdən uşaqlara yaşlarına uyğun surətdə müasir proqramlaşdırma dilləri, kodlaşdırma da öyrədilir ki, bu da onlara savadlılıq, tənqidi düşünmə və problem həll etmə kimi bacarıqlar qazandırır. Məhz bu bacarıqları olan uşaqlar hər bir ölkənin gələcək inkişafını müəyyən edən mühəndislik sahəsində yaradıcı imkanlara sahib olurlar.



İsveç Kral Elmlər Akademiyası oktyabrın 12-də iqtisadiyyat sahəsində 2020-ci il üzrə Nobel mükafatı laureatlarının adlarını elan edib. Alfred Nobelin xatirəsinə həsr olunan mükafata "hərraclar nəzəriyyəsinin təkmilləşdirilməsi və yeni auksion formatlarının ixtiralarına görə" iki amerikalı alim Paul R.Milqrom və Robert B.Vilson layiq görülüb. Bu barədə Akademiyanın baş katibi Qoran Xansen açıqlama verib.

# İqtisadiyyat üzrə Nobel laureatları



Oruc MUSTAFAYEV

İqtisadi elmlər üzrə Nobel mükafatı Alfred Nobelin vəsiyyətinə daxil edilməyib. İsveçin Mərkəzi Bankı Alfred Nobelin xatirəsi olaraq bu mükafat barədə məlumatı 1968-ci ildə, özünün 300 illik yubileyində açıqlayıb. Bu mükafat ilk dəfə 1969-cu ildə verilib və o vaxtdan bəri bank tərəfindən maliyyələşdirilir. 1.1 milyon dollarlıq mükafat iki iqtisadçı arasında bərabər şəkildə bölünəcək.

Pol Milqrom 1948-ci ildə ABŞ-ın Detroyt şəhərində anadan olub. 1979-cu ildə Stanford Universitetinin fəlsəfə doktoru elmi dərəcəsini alıb. Stanford Universitetinin humanitar elmlər professorudur. Yel, Kaliforniya Berkli universitetlərində müəllimlik edib.

Robert Uilson 1937-ci ildə ABŞ-da anadan olub. 1963-ci ildə Harvard Universitetini bitirib. Stanford Universitetinin əməkdar menecment professorudur.

Qeyd edək ki, mükafatın sahiblərinə təqdim olunma mərasimi dekabrın 10-da Albert Nobelin anım günündə onlayn rejimdə keçiriləcək, laureatlar İsveçin öz ölkələrindəki səfirliklərində, ya da çalışdıqları elmi müəssisələrində mükafatı qəbul edəcəklər.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6767, **Sifariş** 2436

**Məsul növbətçi:** O.Mustafayev


## Yeni layihəyə start verilir

Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) və AzEduAz Təhsil Portalı tərəfindən məktəb direktorları üçün "Tədrisin təşkili: yeni şərait, yeni qaydalar" layihəsinə start verilir.

Layihənin əsas məqsədi ümumi təhsil müəssisələrində xüsusi karantin rejimi dövründə məktəb direktorlarının tədris və təlim-tərbiyə prosesinin təşkilinə dair pedaqoq və idarəedici kimi praktik təcrübəsini, müvafiq təklif və tövsiyələrini bölüşmək, həmçinin məktəb kollektivi, şagird və valideynlərin mövcud vəziyyətdə davranış qaydaları ilə bağlı münasibətini ictimailəşdirməkdən ibarətdir.

Məktəb direktorları layihə çərçivəsində yeni tədris mühitində ümumi təhsil müəssisələrində dərslərin təşkili ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarı, Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq əmrlərinin icrası çərçivəsində həyata keçirilən işlərə dair məqalələrlə çıxış edə bilərlər. Məqalələrdə distant təhsil, məktəblərdə gigiyenik tələblərin tətbiqi vəziyyəti, məktəbdaxili davranış qaydaları, şagirdlərin maarifləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili və yaradıcılıq qabiliyyətlərinin inkişafı barədə müvafiq yanaşmalar təqdim ediləcək.

# Etibarsız sayılır

**Sumqayıt şəhər** 12 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Dumanova (Manafova) Aysel Yasin qızına verilmiş A-031862 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2002-ci ildə Həsənova Səriyyə Namet qızına verilmiş A-117843 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Bədəlov Şahin Şirvan oğluna verilmiş A-048728 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Həsənova Sevinc Həsən qızına verilmiş N-518068 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 262 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Ağayeva (Quliyea) Xanım Ağalar qızına verilmiş B-372916 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik şəhər** 1 nömrəli tam orta məktəbi (indiki 1 nömrəli texniki fənlər təmayüllü lisey) 2008-ci ildə bitirmiş Salayeva Aysel Ələkbər qızına verilmiş BN-572543 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**R.Q.Əliyev adına** Bakı 1 nömrəli tibb məktəbi tərəfindən 2002-ci ildə Abdullayeva (Şükürova) Səkinə Vafiq qızına verilmiş AB-II-078601 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Karamov Yuri Borisoviçə verilmiş A-363916 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 188 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Abbasova Aysel Asif qızına verilmiş A-017533 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 238 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Nurməmmədova Günel Vaqif qızına verilmiş B-012692 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Abdullayeva Zöhrə Məhərrəm qızına verilmiş B-101303 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı İnşaat Texnikumu** tərəfindən 1997-ci ildə Babakişiyeva Şəfəq Əli qızına verilmiş AB-II-020175 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 47 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Şahmaliyeva Nərgiz Nəriman qızına verilmiş A-313881 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2018-ci ildə Şahmaliyeva Nərgiz Nəriman qızına verilmiş C-001583 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Qara Varis Qara oğluna verilmiş A-085860 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 1 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Mustafayeva Şəfiqə Xamiz qızına verilmiş E-311496 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** (indiki Bakı Slavyan Universiteti) tərəfindən 1988-ci ildə Məmmədova Şəfəq Lətif qızına verilmiş PB-023489 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** Xarici Dillər təmayüllü gimnaziyanı 2008-ci ildə bitirmiş Məmmədzadə Nahid Məşkur oğluna verilmiş B-525688 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Aşağı-Nüvədi qəsəbə tam orta məktəbi 1994-cü ildə bitirmiş Əbdülov Kamran Əbdüləli oğluna verilmiş 131 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Qazıməmməd şəhər** 2 nömrəli orta məktəbin (indiki Hacıqabul şəhər 2 nömrəli tam orta məktəb) IX sinfini 2003-cü ildə bitirmiş İbrahimova Minarə Ramiz qızına verilmiş 619781 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Neftçala Peşə Məktəbi** (151 nömrəli Neftçala orta texniki peşə məktəbi) tərəfindən 1986-cı ildə Əliyev Elman Böyükkişi oğluna verilmiş Г-604968 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Quliyeva (Hüseynova) Vüsalə Yavər qızına verilmiş BN-588356 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdullayev Ayaz Elşad oğluna verilmiş B-592083 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Kolleci** tərəfindən 2002-ci ildə Qulamova (İskəndərova) Günay Seyfulla qızına verilmiş AB-II-087375 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** (keçmiş V.İ.Lenin adına ADPİ) tərəfindən 1977-ci ildə Xəlifə-zadə Elman Elxan oğluna verilmiş Б-I-009410 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1978-ci ildə Quliyev Fərhad Pirəli oğluna verilmiş Д-I-013740 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1997-ci ildə Abdullayev Teyfur Vaqif oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Müəllimlər İnstitutu** tərəfindən 2019-cu ildə Eynullayeva Səkinə Niyazi qızına verilmiş C-050124 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Xalıqlar kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Xəlilov Bəhruz Təvəkgül oğluna verilmiş A-603939 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qorçulu kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Nəcəfova Türkanə Tahir qızına verilmiş A-169904 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Ləj kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Rzayeva (Şükürova) Xəyalə Ağababa qızına verilmiş B-066015 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Osaküçə kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Həbibov Rizvan Fərhad oğluna verilmiş 89 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Muradov Elnur Nadir oğluna verilmiş AN-686258 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədov Orxan Əliyar oğluna verilmiş B-510284 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Göyəçöl kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Abıyeva Kəmalə Yavər qızına verilmiş 061622 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdullayev Pərviz Sakit oğluna verilmiş 626683 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdullayev Çingiz Sakit oğluna verilmiş 626684 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Həsənzadə Fatimə Habil qızına verilmiş E-021003 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2017-ci ildə Cəfərov Müseyib Vidadi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Tağızadə Şahnaz Sucəddin qızına verilmiş 466410 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasını** 2003-cü ildə bitirmiş Nəsibov Taleh Asif oğluna verilmiş 690497 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# Müəllimlər: böhran dövründə aparıcı rol və gələcəyin yenidən düşünülməsi

**Oruc MUSTAFAYEV**

UNESCO-nun Baş direktoru Odre Azule, Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Qay Rayder, UNICEF-in icraçı direktoru Henrietta For və Beynəlxalq Təhsilin Baş katibi David Edvards ictimaiyyətə birgə müraciət ünvanlayıblar. Müraciətdə COVID-19 pandemiyası şəraitində müəllimlərin qarşılaşdıqları çətinliklər diqqətə çatdırılır.

- Pandemiyanın göstərdiyi kimi, müəllimlər təhsilin fasiləsizliyinin təmin edilməsinə və şagirdlərin psixi sağlamlığının və rifahının qorunmasına həlledici töhfələr verirlər.
- Böhran dövründə sabitliyi artırmaq üçün bütün müəllimlər kompüter və pedaqoji bacarıqlara malik olmalıdırlar ki, yüksək texnoloji, istərsə də aşağı texnoloji şəraitdə hər hansı bir texniki maneə olmadan, tədrisin uzaqdan, onlayn rejimdə, həmçinin qarışıq və ya hibrid təlim çərçivəsində aparılmasına imkan versin.
- Sənəddə 2030-cu ilədək Davamlı İnkişaf Məqsədlərinin 4-cü hədəfinə nail olmaq istiqamətində, habelə pandemiyanın nəticələrinin aradan qaldırılmasında müəllimlərin rolu yüksək qiymətləndirilir.

## Təhsilin fasiləsizliyinin təmin edilməsinə və şagirdlərin psixi sağlamlığının qorunmasına müəllimlər həlledici töhfələr verir

Sənəddə qeyd olunur ki, Beynəlxalq Müəllimlər Günü hər il bizə müəllimlərin ən əhəmiyyətli rolunu xatırladır. Müəllimlər hamı üçün inklüziv və keyfiyyətli təhsilin təmin edilməsində xüsusi rol oynayırlar. Bu il Beynəlxalq Müəllimlər Günü müəllimlərin böhran zamanı qarşılaşdıqları problemlər fonunda daha da əhəmiyyət kəsb edir. Pandemiyanın göstərdiyi kimi, müəllimlər təhsilin fasiləsizliyinin təmin edilməsinə və şagirdlərin psixi sağlamlığının və rifahının qorunmasına həlledici töhfələr verirlər. COVID-19 pandemiyası ilə əlaqədar məktəblərin bağlanması problemi demək olar ki, 1,6 milyard şagird, yəni bütün dünyada şagirdlərin ümumi sayının 90%-dən çoxuna təsir edib. COVID-19-un səbəb olduğu böhran 63 milyondan çox müəllimə də təsir edib, bir çox təhsil sistemlərinin mövcud çatışmazlıqlarını ortaya qoyub və bərabərsizlik problemini daha da kəskinləşdirib ki, bu da ən həssas əhali qrupu üçün fəlakətli nəticələr doğurub. Bu böhran şəraitində müəllimlər - əvvəllər də etdikləri kimi, təhsilin davam etdirilməsini, heç bir şagirdin diqqətdən kənarda qalmamasını təmin etmək üçün yeni yanaşmalar hazırladılar.

İndi COVID-19 pandemiyasından sonra gələcəyimizi düşünmək, bu cür böhranlara tez və səmərəli reaksiya verə bilmək, təhsil sistemlərimizin dayanıqlılığı üçün çalışmaq lazımdır. Bu, təhsilin maliyyələşdirilməsinin qorunmasını, yüksək keyfiyyətli pedaqoji hazırlığa investisiya qoyulmasını, həmçinin artıq mövcud olan müəllim heyətinin peşə təhsilinin davam etdirilməsini nəzərdə tutur. Təcili tədbirlər görülməsə və investisiyaların həcmi artırılmasa, təhsil sahəsində böhran fəlakət ola bilər.

Pandemiyadan əvvəl, on yaşlı uşaqların yarısı aşağı və orta gəlirli ölkələrdə sadə yazılı hekayəni başa düşə bilmirdilər. Böhran dövründə sabitliyi artırmaq üçün bütün müəllimlər kompüter və pedaqoji bacarıqlara malik olmalıdırlar ki, yüksək texnoloji, istərsə də aşağı texnoloji şəraitdə hər hansı bir texniki maneə olmadan, tədrisin uzaqdan, onlayn rejimdə, həmçinin qarışıq və ya hibrid təlim çərçivəsində aparılmasına imkan versin. Hökumətlər hər yerdə rəqəmsal infrastrukturları və internetə qoşulma imkanlarını təmin etməlidirlər.



Sənəddə 2030-cu ilədək Davamlı İnkişaf Məqsədlərinin 4-cü hədəfinə nail olmaq istiqamətində, habelə pandemiyanın nəticələrinin aradan qaldırılmasında müəllimlərin rolu yüksək qiymətləndirilir. Vurğulanır ki, təhsil konsepsiyasını yenidən nəzərdən keçirməyin və hər bir uşaq üçün keyfiyyətli tədrisə bərabər girişi təmin etməyin vaxtıdır.

Bu il Beynəlxalq Müəllimlər Günü "Müəllimlər: böhran dövründə aparıcı rol və gələcəyin yenidən düşünülməsi" mövzusuna həsr olunub. Bu əlamətdar günün qeyd edilməsində məqsəd cəmiyyətin inkişafında müəllimin rolunu vurğulamaq, dünyanın hər yerində təhsil sahəsində heç kimin unudulmaması, geri qalmaması üçün səy göstərən müəllimlərin əməyinə diqqət çəkməkdir.





